# ATATÜRKÜ YAXŞI ANLAMAQ



HARUN YƏHYA
(ADNAN OKTAR)

HARUN YƏHYA

# ATATÜRKÜ YAXŞI ANLAMAQ

(ADNAN OKTAR)

*“Məni görmək mütləq üzümü görmək demək deyil. Mənim fikirlərimi, mənim duyğularımı anlayıb və hiss edirsinizsə, bu kifayətdir.”*

**M. K. Atatürk**

# MÜNDƏRİCAT

1. GİRİŞ

2. ƏXLAQİ GÖZƏLLİYİN ƏHƏMİYYƏTİ

3. ATATÜRKÜN ƏXLAQİ ŞƏXSİYYƏTİ

4. ATATÜRKÜN GÖZƏL ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

5. ATATÜRK HANSI CƏMİYYƏT ÜÇÜN MÜBARİZƏ APARDI?

6. NƏTİCƏ: “TÜRK XALQI DAHA DİNDAR OLMALIDIR”

7. ATATÜRKÜN ƏXLAQI HAQQINDA NƏ DEDİLƏR?

8. HƏQİQİ ATATÜRKÇÜ GƏNC HANSI ƏXLAQA SAHİB OLMALIDIR?

9. TƏKAMÜL YALANI

ÖN SÖZ

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

YAZIÇI HAQQINDA

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

GİRİŞ

# GİRİŞ



Atatürk həm təsir edici şəxsiyyəti, həm də əxlaqi üstünlükləri ilə bütün dünyanın ürəyində taxt qurmuş bənzərsiz liderdir. Tənəzzül ərəfəsində olan, dağıntı halına gəlmiş bir imperatorluğun, kölələlik təhdidi ilə qarşı-qarşıya qaldığını hiss etmiş, millətimizi əsarətdən qurtarmaq üçün böyük milli qurtuluş hərəkatı başlatmışdır.

Cümhuriyyət tariximiz ərzində kritik dövrlər atladan millətimiz bir çox problemin öhdəsindən yalnız Atatürkçü düşüncəyə və milliyyətçi-mühafizəkar şəxsiyyətə sahib çıxmaqla gəlinə biləcəyini qavramışdır. 21-ci əsrdə Türkiyənin böyük öndərin hədəf göstərdiyi "müasir mədəniyyətlər" arasında yer alması və ölkəmizin "lider ölkə Türkiyə" olması üçün Atatürkün açdığı bu yolda əmin addımlarla irəliləməlidir.

Bir çıxışında Atatürk "Müasir cümhuriyyət qurmaq millətin insan kimi yaşamağı bilməsi, insan kimi yaşamağın nəyə bağlı olduğunu öyrənməsi deməkdir"1 deyərək, Cümhuriyyətin qurulması və davamlılığı üçün "insan kimi" yaşamağın əhəmiyyətinə diqqət çəkmişdir. Atatürk Müsəlman-Türk millətinin insanlıq qüruruna yaraşan şəkildə yaşaması üçün bu məsuliyyəti öz çiyinlərində hiss etmiş, ölkəyə sahib çıxmış, artıq missiyasını tamamladığına inandığı imperatorluğun üzərinə yeni təməllərə əsaslanan dövlət qurmuşdur.

Şübhəsiz ki, Atatürk dünyada az rast gəlinən bir liderdir. O, Türk dövlətini bizə, xüsusilə də, qəlbi ilə güvəndiyi gənclərə əmanət etmişdir. Türk millətinin bağrından onun izi ilə gedən yüzlərlə, hətta minlərlə Atatürk çıxaracaq. Ulu öndər Atatürk də xahişini bu şəkildə ifadə etmişdir:

*"İki Mustafa Kamal vardır. Biri mən, fani Mustafa Kamal; digəri millətin içində yaşatdığı Mustafa Kamallar idealıdır. Mən onu təmsil edirəm. Hər hansı bir təhlükə anında mən ortaya çıxdımsa, məni bir Türk anası doğurmadımı, Türk anaları daha nə qədər Mustafa Kamallar doğurmayacaqlarmı? Feyz millətindir, mənim deyil."2*

Biz isə Atatürkün qanunlarına daim dəstək olmalı, millət olaraq bu mövzuda şüurlanmaq və onun göstərdiyi gözəl əxlaqı nümunə götürməliyik. Bunun üçün isə, əvvəlcə Atatürkün əxlaqını yaxından tanımaqla başlamalıyıq.



Atatürkü yaxşı anlamaq; yalnız onu tərifləyəcək sözlər demək, şifahi təqdir etməklə deyil, onun millətindən nə istədiyini anlamaq, fikri quruluşunu və qanunlarını həyata keçirmək deməkdir. Mustafa Kamal Atatürk onu anlamağın, onun yolunda irəliləməyin necə mümkün olacağını bizə yol olaraq bu şəkildə ifadə etmişdir:

*"Məni görmək mütləq üzümü görmək demək deyil. Mənim fikirlərimi, mənim duyğularımı anlayıb və hiss edirsinizsə, bu kifayətdir."3*

Məhz bu kitabın yazılmasındakı məqsəd; insanı insan edən əxlaqi dəyərləri Atatürkün sözlərindən istifadə etməklə izah etmək, bayrağımızın göylərdə azad dalğalanması, dövlətimizin və millətimizin davamlılığı üçün "gözəl əxlaqın" əsas şərt olduğu mövzusunda gənc nəsilləri

məlumatlandırmaqdır. Ulu Öndər Atatürkün dediyi kimi yalnız "qılıncla fəth edənlər məğlub olmağa və nəticə etibarı ilə mövqelərini onlara buraxmağa məcburdurlar."4 Bu səbəblə millətin və dövlətin davamlılığı üçün cəmiyyəti meydana gətirən hər fərd gözəl əxlaqlı olmalıdır.

I FƏSİL

# ƏXLAQİ GÖZƏLLİYİN ƏHƏMİYYƏTİ



Şanlı bir keçmişə sahib olan millətlərin arxasında həmişə tarix boyunca üstün qabiliyyətli və çox tərəfli liderlər olmuşdur. Mustafa Kamal Atatürk də hərbi və siyasi "məsuliyyət alma", "sahiblənmə", "fikir və siyasət adamlığı" kimi xüsusiyyətləri ilə bənzərsiz bir lider idi.

Bu günə qədər bir çox şəxs Atatürkün müvəffəqiyyətli liderlik xüsusiyyətlərinin ardında onun yalnız xarizmatik şəxsiyyəti, qabiliyyəti, zəkası, qərar verə bilmə gücü və özünə olan etibarı kimi xüsusiyyətlərini axtarmışdır. Əlbəttə, Atatürkün müvəffəqiyyətində bu dahiyanə xüsusiyyətlərin çox böyük faydası vardır. Ancaq Türkiyənin "uzun nəfəsli" liderinin müvəffəqiyyətinin ardındakı sirri öyrənmək üçün əsas onun əxlaqi xüsusiyyətləri qiymətləndirilməlidir.

Atatürkün həyatı araşdırılsa, əldə etdiyi müvəffəqiyyətin onun əxlaq gözəlliyi ilə əlaqəli olduğu görüləcək. Atatürk çökən bir imperatorluğun ardından, millətin müstəqilliyinin təhlükəyə girdiyini hiss etmiş və bu təhlükəni ortadan qaldırmaq üçün bir çox fədakarlıqlar etmişdir.

Bu, göz ardı edilməməli olan bir nöqtədir ki, Mustafa Kamalın vətəni və milləti üçün etdiyi bütün fədakarlıqlar, onun inanclı quruluşu nəticəsində ortaya çıxan gözəl əxlaq xüsusiyyətləridir.

Gözəl əxlaqın mənşəyi isə dinə əsaslanır. Dini dəyərlərə inanmayan, vicdanı ilə hərəkət etməyən bir insanın təhlükə altında olan vətənini və millətini qurtarmağı düşünməsi, gələcək nəsil üçün canını belə sevərək ortaya qoyması mümkün deyil. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.v.), "Möminlər arasında iman cəhətdən ən kamil olanı, əxlaq cəhətdən ən gözəl olanıdır"5 deyə buyurmuşdur. Peyğəmbərimizin (s.ə.v.) bu sözü, Mustafa Kamalın üstün əxlaqının din əxlaqına olan bağlılığından qaynaqlandığının ən gözəl nümunələrdən birini təşkil edir.

Bir milləti bir-birinə birləşdirən ən əhəmiyyətli bağ gözəl əxlaqdır. Cəmiyyəti meydana gətirən fərdlərin gözəl əxlaqlı olması cəmiyyətin hamısına təsir etdiyi kimi, sevgi, hörmət, dürüstlük, fədakarlıq kimi əxlaqi dəyərlərin yaşanması cəmiyyəti hər ötən gün daha da güclü hala gətirəcək. Əxlaqi dəyərlərini ön planda tutmağı həyat forması halına gətirən insanlardan ibarət olan cəmiyyətdə həmişə birlik, bərabərlik və həmrəylik olar.

Gözəl əxlaqın bilinmədiyi cəmiyyətləri isə əxlaqi degenerasiya içdən-içə gəmirən qorxunc xəstəlik kimi əhatə edər. Sevgi, hörmət, dürüstlük, fədakarlıq yerinə mənfəətçi və eqoist bir quruluş hakim olar. Başqa sözlə, din əxlaqının olmadığı yerdə gözəl əxlaq da yoxdur. Çünki bir insanın gözəl əxlaqlı olmasını təmin edən Allah qorxusu və Allah sevgisidir. Əxlaqi quruluşu pozulan cəmiyyətlər gec-tez çökməyə məhkum olarlar. Tarixə baxdığımızda bunun bir çox nümunəsini görmək mümkündür.

Atatürkün Türk millətinə yol olaraq göstərdiyi Quran əxlaqı cəmiyyətdə yayıldığı zaman isə yardımlaşma, ədalət, fədakarlıq, tolerantlıq, dürüstlük kimi dəyərlər daha çox yaşanacaq, cəmiyyətin fərdləri həmrəylik içində daha da güclü bir quruluşa doğru irəliləyəcək. Yardımlaşma və əməkdaşlığın olduğu cəmiyyətimizdə "birlikdən qüvvət doğulacaq", yurdumuz dünya ölkələri arasında layiq olduğu yeri alacaqdır.

II FƏSİL

# ATATÜRKÜN ƏXLAQİ ŞƏXSİYYƏTİ

Atatürk yalnız siyasi və hərbiçi şəxsiyyəti ilə deyil, eyni zamanda, əxlaqi şəxsiyyəti ilə Türk millətinin qarşısında çox gözəl nümunədir. Ulu öndər Atatürk İslam əxlaqı ilə əxlaq qazanmış, tam Osmanlı bəyəfəndisidir.

İnsanlara qarşı çox müşfiq və tolerant olan Atatürkün qəlbi millət və insan sevgisi ilə doludur. Onu tanıyanlar həmişə bitmək bilməyən səbrini, fədakarlığını, insan sevgisini təqdir etmiş və mədəni şəxsiyyətini qibtə ilə izləmişlər. Cəmiyyət həyatına dəyər verməsi, ictimai əlaqələrdəki müvəffəqiyyəti və səmimi çıxışları ilə tanınan Atamızın bütün bu xüsusiyyətləri əslində onun gözəl əxlaqının bir təzahürüdür. Böyük öndər yaşadığı çətin şərtlərdə belə bu şəxsiyyətindən güzəştə getməmiş, həmişə ətrafındakılara sevinc, canlılıq və mənəvi dəstək verərək, onu tanıyan hər insanın qəlbində çox əhəmiyyətli bir yer əldə etmişdir.

Atatürkün gözəl əxlaqı Türk milləti üçün hər nə bahasına olursa olsun, xidməti özünə qanun etməsindən və bu yolda heç bir fədakarlıq etməkdən çəkinməməsindən aydın olur. Fədakarlıq üçün əsas əhəmiyyətli olanın xalqın və vətənin sağlamlığını və təhlükəsizliyini təmin etmək olduğuna inanan Atatürk lazım olsa, bu yolda canını belə fəda edəcəyini söyləmişdir:

> *“Lazım olarsa, ən böyük hədiyyəm kimi Türk millətinə canımı verəcəyəm.”6*

Əxlaqı ilə də həmişə müsəlman Türk xalqına nümunə olan Atatürk çox mərhəmətli, şəfqətli və bağışlayıcı əxlaqa sahib idi. Yaxın ətrafından bir dostu Mustafa Kamalı bu sözlərlə xatırlamışdır:



◉ Uşaqlara qarşı şəfqətini hər fürsətdə göstərən Atatürk, Osmaneli stansiyasında bir şagirdin oxuduğu şeiri dinləyərkən.

*"Vəziyyətə görə davranmağı bilər, heç kimə kin saxlamaz, nə qədər hirslənsə də, bir müddət sonra onu bağışlayar, olanları unudardı. Buna görə ətrafındakı bir çox şəxs bəzən gözdən düşər, sonra yenidən bağışlanar, əvvəlki yerini alardı."7*



Atatürkün əxlaqında ailəsinin mühafizəkar və mənəvi dəyərlərinə bağlı olmasının çox böyük rolu olmuşdur. Uşaqlığında yaxşı ailə tərbiyəsi görmüşdü. İlk din təhsilini anası Zübeydə xanımdan almış və yenə dindarlığı ilə tanınan atası Əli Rza bəyin gözəl əxlaqından da təsirlənmişdir. Doğru mühitdə böyüyən Mustafa Kamal ətrafında kiçik yaşlardan etibarən əfəndiliyi və səmimiyyəti ilə tanınmışdır.

Atatürkün əlaqələrində hörmət və sevgi əsas olmuşdu. Və Mustafa Kamal həmişə insana layiq olduğu dəyəri vermişdi. Qəlbi millətinin fərdlərinə qarşı sevgi ilə dolu olan Atatürk həmişə "Millət sevgisi qədər böyük mükafat yoxdur"8 deyərdi. Mustafa Kamal Atatürkün ən əhəmiyyətli xüsusiyyətlərindən biri ətrafı ilə olan insani əlaqələrini həmişə yumşaq, yaxın və səmimi saxlamasıdır. Hamıya sevgi və yaxşı niyyətlə yaxınlaşar, hər an köməksevərliyini ön planda tutmağa çalışardı. Ətrafında çox insan olmasından xoşu gələr, dövlət və elm adamlarını axşam yeməyinə dəvət edər, ölkə məsələlərindən bəhs edər, onları çox gözəl qonaq edərdi.

Şəxsi həyatında böyük bir sadəlik içində yaşayan Atatürk sahib olduğu bu üstün əxlaq xüsusiyyətini göstərmək üçün bir çox uşağın himayəçiliyini boynuna götürmüş, bir çoxunu da mənəvi övlad olaraq seçmişdi. Atatürkün mənəvi övladları Afet İnan, Sabiha Gökçen, Fikriyə, Ülkü, Nebile, Rukiye, Zehra, Mustafa, Abdurrahim, İhsandır.

Bir xalqı yox olma təhlükəsindən qurtaran Atatürkün insanların alçaldılmasından xoşu gəlməzdi, hər kim olursa olsun, Allahın yaratdığı bir qul olduğu üçün ona dəyər verilməli olduğunu düşünərdi. Millətinin hər övladına qiymət verər, hər kəsin də bir-birinə eyni dəyəri verməsini istəyərdi. İnsanları hörmətdən salacaq rəftarlar, lağ etmə və ləqəb qoyma kimi çirkin əxlaq xüsusiyyətlərini heç sevməzdi.

Qarşısındakı insanı kiçik görmə və ona alçaldıcı ləqəblər qoymağın İslam əxlaqında da çirkin qarşılanan bir rəftar olduğunu bilən Atatürk, o dövrdə şəhərdə yaşayıb kəndliləri kiçik görən vətəndaşlara şiddətlə qarşı çıxmış, kəndlini kiçik görən, onların cahil, anlayışsız və kobud olduğunu müdafiə edənlərə və bir-birlərinə təhqir olaraq “kəndli kimisən” deyən şəxslərə “Türkiyənin həqiqi sahibi və əfəndisi kəndlidir” deyə cavab vermişdir. Kəndlinin layiq olduğu dəyəri göstərmək üçün də getdiyi yerlərdə bu sözünü təkrarlamışdır.9



Əxlaqının təməlini İslam əxlaqı üzərinə qurmuş Atatürkün bu əxlaqı yenə Quran ilə əlaqədardır. Çünki Hucurat surəsinin 11-ci ayəsində Allah lağ etmə, ləqəb qoyma və hörmətdən salmağın çirkin xüsusiyyətlər olduğunu bildirmiş və ayədə belə buyurmuşdur:

> *“Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın.” (Hucurat surəsi, 11)*

Atatürk gözəl əxlaqlı olduğu qədər, eyni zamanda, çox incə düşüncəli bir insan idi. Şən, zarafatcıl quruluşu və iti zəkası ilə səhvləri düzəldər, heç kimin utanacağı bir vəziyyətə düşməsini istəməzdi. Bir ölkənin Kralının qatıldığı ziyafətdə baş verən bir hadisə onun gözəl əxlaqını yenə

ön plana çıxarmışdı. Atatürkün bu hadisə əsnasında göstərdiyi incə davranışı belə izah edilmişdir:

> *"Yemək əsnasında qarsonlardan biri yəqin ki, çox həyəcanlandığı üçün əlindəki böyük farfor qabla yerə yıxıldı. Süfrədəkilər utanc içində önlərinə baxdıqları bir anda Atatürk sanki heç bir şey olmamış kimi Krala doğru əyilərək: "bu millətə hər şeyi öyrətdim, lakin xidmətçiliyi öyrədə bilmədim" deyə həm məsələni bağladı, həm də ortalığı sevincə qərq etdi. Qarsona da "vəzifənə davam et!" əmrini verdi."10*

Türk millətinə şəxsən əxlaqı ilə nümunə olmuş Atatürk istər dövlət rəhbərliyi, istərsə də etdiyi islahatlarla xalqın da gözəl əxlaqı yaşaması üçün bir çox tədbir görmüşdür. İndi bu mövzuları sıra ilə araşdıraq.

## Gözəl əxlaqın qaynağı dindir: Atatürkün İslam dininə baxışı

Atatürk haqqında ən çox müzakirə edilən mövzulardan biri onun din anlayışıdır. Bəzi şəxslər Atatürkü "din əleyhdarı" kimi göstərməyə çalışmışlar. Mustafa Kamalın sözlərini, izlədiyi yolu və siyasətini nəzərdən keçirdiyimizdə həqiqətin heç də bu şəxslərin iddia etdiyi kimi olmadığını, əksinə Atatürkün dininə bağlı bir insan olduğunu görə bilərik. Atatürkün dindarlığını onun ən yaxınlarından öyrənmək lazımdır.

## Atatürkün dindarlığı haqqında nə dedilər?

Atatürkün mənəvi qızı Sabiha Gökçen Mustafa Kamal haqqında belə deyir:



*"Atanın əlini öpmək üçün yanına gəldim. İşləri ilə məşğul idi. Bir müddət ayaqda gözlədim. Birdən dərin ah çəkdi. Və "Allah" dedi. O bunu tez-tez təkrarladı. Atatürk haqqında əvvəlcə çox şey eşitmişdim. Bundan təsirlənərək çox təəccübləndim. Onun ağzından Allah sözünü eşitmək məni çox təəccübləndirdi və həyəcanlandırdı. Atanın üzünə təəccüblə baxmışmışam ki,*

-"Sən dindarsanmı" deyə soruşdu?



◉ Atatürk İzmir səfərindən qayıdarkən Uşaqda qarşılanarkən dua edir. (18 fevral 1923)

-"Bəli dindaram" dedim. Və bu cavabımı necə qarşılayacağını anlamaq üçün ürkəkcəsinə üzünə baxdım. Cavabım xoşuna gəlmişdi.

> *"Çox yaxşı, Allah böyük gücdür. Ona inanmaq lazımdır" dedi. Və bu mövzuda uzun-uzun izahat verdi. Mən də o zaman anladım ki, Atatürk haqqında deyilənlərin əsli yoxdur. Və Ata bütün deyilənlərin əksinə dindar insan idi."11*

Atatürkün digər mənəvi qızı Ülkü Şüküllüoğlu izah edir:

*“Anamı Zübeydə xanım böyütmüşdür. Onun anama söylədiyi bir xatirəni anladım. Atatürk 25 avqustda Kocatepeyə çıxdığı zaman orada belə dua edir: “Allahım, sənin mənə verdiyin fikir və zəka ilə mən bütün planlarımı reallaşdırdım. Bundan sonrası artıq Sənin müqəddəratındır…” O, Allahına inanan bir insan idi. Paşa Ramazanda Dolmabahçədə və ya Çankayada olanda anamdan “oruc tutursanmı?” deyə soruşarmış, anam “tuturam” deyəndə çox məmnun qalarmış. Mənə xəstələndiyimdə dua etdirərdi, özü də edərdi. Çox yaxşı xatırlayıram, tif xəstəliyi keçirirdim, çox kədərlənmiş məni qurtarması üçün Allaha dua etmişdi. Anası Zübeydə xanım da çox dindar imiş. Anama hələ 7 yaşında ikən Quran dərsi öyrənməyə başlamışdı. Bacısı Makbulə xanımın da həmişə namaz qıldığını bilirəm.”12*

Safiye Ayla deyir:



◉ Ankara müftisi Rıfət (Börəkçi) Əfəndi İcra Vəkilləri Heyətinin önünə keçib dua edərkən.

> *“Anası Zübeydə xanım və bacısı Makbulə xanım da çox dindar insanlar idilər. Namaz qılardılar. Tam dindar ailə mühitində yetişdi. Atatürk də dindar bir insan idi. Çox bəyəndiyi hafiz Yaşar var idi. O Quran oxunarkən gözlərindən yaşlar axardı. Hətta bütün müəllimləri yığıb ayələri oxuyub izah edərək araşdırmalar edərdi. Mənə “Allahın sənə verdiyi lütfü unutma və bununla təkəbbürlənmə, təvazökar ol, həmişə Allaha şükür et” deyərdi. Ona “Paşam bunu etdin, onu etdin” deyənlərə “Mənə Allah kömək etdi, mən şanslı insanam deyərdi.”13*

Vasfi Rıza Zobu deyir:

> *“Hz. Peyğəmbərə çox hörmət edərdi. Peyğəmbərlərin çox sağlam bir mühakiməyə vaqif olduğuna inanırdı. Bir gecə hz. Peyğəmbərin hərbi dahiliyindən bəhs edirdi. Orada heç Məhəmməd (s.ə.v.) demədi... Onun dinə, fikrə hörmətcil bir şəxsiyyəti vardı. Qurana da çox hörmət edərdi. Yanında üç hafiz vardı. Hafiz Yaşar, hafiz Hüseyn, hafiz Mehmet. Mən o hafizləri onun yanında Çankayada tanıdım. Hörmətlə qulaq asardı. Onun qarşı olduğu mövhumat və xurafatlar idi.”14*

Cemal Kutay deyir:

> *“Dünyada Atatürk qədər İslam dinini məna və məfhumu ilə qavramış və onu əslinə qaytarmaq üçün böyük mübarizə vermiş başqa bir insan yoxdur. Mustafa Kamal 1300 il sonra həzrəti Məhəmmədin (s.ə.v.) ruhunu şad edəcək əsaslar gətirmişdir. Bu gün səcdə-i Rəhmana alın qoya bilirlərsə, bu, onun sayəsindədir. Bu gün ən etibarlı iki tərcümə, Ömər Rıza Doğrul və Ahmet Hamdi Akseki tərcümələridir. İkisini də Mustafa Kamal etdirmişdir. Məhəmməd adından istifadə edənləri qətiyyən bağışlamazdı. “O böyük insana layiq ola bilməzsə, nə olacaq” deyərdi.”15*

Süreyya Koral (Kılıç Alinin keçmiş həyat yoldaşı) deyir:

> *“Dünyəvi idi. Dünyəvilik dinsizlik deyil... Quranın türk dilinə tərcümə edilməsi dinin başa düşülməsinə vəsilə olan böyük xidmətdir. O, dinin siyasət vasitəsi kimi istifadə edilməsinə və istismarına qarşı idi və buna heç bir zaman icazə vermədi.”16*

Böyük öndəri tanıyanların da ifadə etdiyi kimi, Atamız dinə və mənəvi inanclarına bağlı və hörmətcil bir lider idi. Atatürkün İslam dinini, Quranı, Peyğəmbərimizi (s.ə.v.) tərifləyən və millətimizi İslam dinini yaşamağa dəvət edən bir çox sözləri mövcuddur. Bu sözlərdən bir neçəsi:

> *“İnsanların mübarizələrindəki ən güclü istehkam (barrikada) inancla dolu sinələridir.”17*

> *“Din vicdan işidir. Hər kəs vicdanının səsinə uymaqda sərbəstdir. Biz dinə hörmət edirik. Düşüncəyə müxalif deyilik. Biz yalnız din işlərini millətin işləri ilə qarışdırmamağa çalışır, niyyət və əmələ əsaslanan təəssübkeşlik hərəkətlərindən çəkinirik.”18*



◉ Hüseyin Rauf (Orbay)ın (1880-1964) başçılıq etdiyi TBMM Hökumətinin üzvləri və din xadimləri Cümhuriyyət elan edilməzdən əvvəlki günlərdə bir mərasimdə.

*"Ey millət! Allah birdir. Şanı böyükdür. Allahın sülhü, sevgisi və xeyiri üzərinizə olsun. Peyğəmbərimiz Allah Təala tərəfindən insanlara dini həqiqətləri bildirməyə məmur və elçi olmuşdur. Qoyduğu əsas qanunlar hamımıza məlumdur ki, Qurandakı mənası açıq olan ayələrdir. İnsanlara bolluq ruhu vermiş dinimiz son dindir. Ən mükəmməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə tamamilə uyğundur."19*

*"Din vardır və lazımdır. Dinsiz millətlərin davam etməsinə imkan yoxdur."20*

*"Millətimiz din və dil kimi qüvvətli iki fəzilətə malikdir. Bu fəzilətləri, heç bir qüvvət millətimizin qəlbindən və vicdanından çəkib ala bilməmişdir və ala bilməz də."21*

*"Məscidlərin müqəddəs minbərləri xalqın ruhi, əxlaqi qidalarına ən yüksək, ən səmərəli qaynaqlardır. Minbərlərdən xalqın anlaya biləcəyi dillə ruh və beyinə xitab edir, müsəlmanların bədəni canlanar, beyni təmizlənər, imanı qüvvətlənər, ürəyi cəsarət tapar."22*

*"Ey yoldaşlar! Allah birdir, böyükdür - Ədaləti ilahiyyə, Onun təcəllilərinə baxaraq deyə bilərik ki, insanlar iki sinifdə, iki dövrədə mütaliə oluna bilər, ilk dövr insanlığın uşaqlıq və gənclik dövrüdür. İkinci dövr insanlığın kamal (yetkinlik) dövrüdür."24*



◉ “Dinimiz ən məntiqli və ən təbii dindir və məhz ona görə də son din olmuşdur.”

*“Ey millət! Allah birdir, şanı böyükdür. Allahın sülhü, lütfü və xeyiri üzərinizə olsun. Peyğəmbərimiz Allah-Təala tərəfindən insanlara dini həqiqətləri təbliğ etmək üçün məmur və rəsul olmuşdur. Qoyduğu əsas qanunlar cümləmiz tərəfindən məlumdur ki, Qurani azimüssandakı xüsusdur. İnsanlara feyzyab ruhu vermiş dinimiz son dindir, təməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə tamamilə uyğundur. Əgər əqli məntiqə, həqiqətə uyğun olmasaydı, bununla digər ilahi və təbii qanunlar arasında ziddiyyət olardı. Çünki bütün qanunları qoyan Allahdır.”25*

*“Din vardır və lazımdır. Təməli çox möhkəm, yaxşı materialı olan dinimiz var. Lakin binaya uzun əsrdir laqeyd qalınmışdır. Xərclər artdıqca yenidən xərc çəkib binanı möhkəmləndirməyin əhəmiyyəti hiss edilməmişdir. Əksinə, bir çox xarici ünsür binanı çox yıpratmışdır. Bu gün bu binaya toxunmaq olmaz, təmir də edilə bilməz. Ancaq zamanla çatlaqlar dərinləşəcək və möhkəm təməllər üzərində yeni bina qurmağın əhəmiyyəti hasil olacaq.”26*

## Atatürkün Hz. Məhəmməd (s.ə.v.) haqqında düşüncələri

Atatürk yeni Türk dövlətini qurarkən milliyyətçilik idealı ilə hərəkət etmiş, lakin bu milliyyətçiliyin ancaq imanlı, gözəl əxlaqlı, müsəlman Türk xalqının dəstəyi və səyi ilə müvəffəqiyyətli olacağını vurğulamışdır. Bir çox müsahibəsində İslamın əhəmiyyətinə toxunmuş, milli mübarizəyə başlayarkən və milliyyətçilik atəşini yandırarkən ən böyük köməyi din adamlarından aldığını söyləmişdir. Atatürk milli mübarizədə Peyğəmbərimizin uca əxlaqının, mübarizəçi ruhunun, ən gözəl nümunə olduğunu tez-tez təkrarlamışdır.



Atatürkün Hz. Məhəmməd (s.ə.v.) ilə əlaqədar bəzi sözləri:

> *"O, Allahın birinci və ən böyük quludur. Onun izində bu gün milyonlarla insan gedir. Mənim, sənin adın silinər; lakin sonsuza qədər O ölümsüzdür."27*

> *"Böyük inqilab yaradan həzrəti Məhəmmədə qarşı bəslənilən sevgi, ancaq Onun qoyduğu fikirləri, əsasları qorumaqla təcəlli edə bilər."28*

*"Bütün dünyanın müsəlmanları Allahın son peyğəmbəri Hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq izləməlidirlər. Bütün müsəlmanlar Hz. Məhəmmədi nümunə götürməli və onun kimi hərəkət etməlidirlər. İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidirlər. Çünki bu şəkildə insanlar xilas ola və inkişaf edə bilərlər."29*

## Atatürkün vicdan və düşüncə azadlığı haqqındakı fikirləri

Atamızın vicdan və düşüncə azadlığının əhəmiyyəti ilə əlaqədar bəzi sözləri bunlardır:

*"Hər fərd istədiyini düşünmək, istədiyinə inanmaq, özünə xas siyasi fikrə malik olmaq, seçdiyi dinin zərurətlərini etmək və etməmək haqq və azadlığına malikdir. Heç kimin fikrinə və vicdanına hakim oluna bilməz. Vicdan azadlığı, mütləq və ələ keçirilməz, fərdin təbii haqlarının ən mühümlərindən tanınmalıdır."30*

*"Türkiyə cümhuriyyətində hər kəs Allaha istədiyi kimi ibadət edər... Türkiyədə kiminsə fikirlərini zorla başqalarına qəbul etdirməyə cəhd edəcək kimsə yoxdur və buna icazə edilə bilməz."31*



◉ Atatürkün gözəl əxlaqının təsirləri dinə göstərdiyi xidmətlərdə də aydın görünür. Mustafa Kamal 23 aprel 1920-ci ildə TBMM-nin balkonunda məclis üzvləri ilə birlikdə.

*“Mövhumata meyllənməmək vətəndaşın və ya hər hansı bir insanın vicdani inanclarına qarşı kin duymayan, əksinə hörmət edən şəxslərdə vardır.”32*

*“Məscidlər, itaət və ibadət ilə birlikdə din və dünya üçün nələr edilməli olduğunu düşünmək, yəni məşvərət üçün tikilmişdir.”33*

## Atatürkün dinə xidmətləri

Atatürkün gözəl əxlaqı tətbiq etdiyi din siyasətində də təsirli olmuşdur. Atatürk xalqın mənəvi tərəfini qüvvətləndirməyə çalışmış, xalqın ancaq bu şəkildə istənilən rifah və hüzura çatacağını müdafiə etmişdir və belə demişdir:

*“Hissiyyatı və vicdani düşüncələri elm və fənlə bəsləyib öyrədərək cəmiyyətin həqiqi hüzur və səadətinə çalışmaq ülvi baxışdır.”34*

Bənzərsiz lider Atatürkün ölkəni idarə etdiyi müddət ərzində dinə etdiyi ən yaxşı xidmət dinin doğru başa düşülməsi və yaşanması üçün ciddi mübarizə göstərməsidir. Bu məqsədlə Atatürk, Diyanət İşləri Nazirliyini qurmuşdur. Xurafatçılığa qarşı çıxmış və Quranın doğru başa düşülməsi üçün Türk dilinə tərcümə edilməsini təmin etmişdir.

## Quranın Türk dilinə tərcümə edilməsi və izah edilməsi

Atatürk Qurani Kərimə də böyük hörmət və itaətlə bağlı bir insan idi. Qurandan danışarkən dəfələrlə “kitabı ekmel”, yəni “ən mükəmməl kitab” ifadəsindən istifadə etmişdir. Atatürkə görə Quranın aydın oxunmalı, yalnız divarlarda bəzək kimi saxlanılan bir kitab olmamalı idi. Mustafa Kamal xurafatları silmək, ağla, fənnə, məntiqə uyğun dediyi həqiqi İslamın izah edilməsini təmin etmək istəyirdi. Bu səbəblə, Quranın başa düşülməsi üçün Türk dilinə tərcümə edilməsinə qərar verdi. Atatürk bu istəyini belə dilə gətirmişdir:

> *“Türklər dinlərinin nə olduğunu bilmirlər. Bunun üçün Quran Türkcə olmalıdır.”*

> *“Türk Quranın arxasınca qaçır, lakin onun nə dediyini bilmir. Və bilmədən tapınır, mənim məqsədim kitabda nələr olduğunu Türkün anlamağıdır.”35*

Bu məqsədlə, Quran Türk dilinə tərcümə edilmiş, Atamızın əmrləri ilə Cümhuriyyətimizin ilk on beş ilində Qurani Kərimin tərcüməsi və təfsiri haqqında 9 əsər nəşr olunmuşdu. Atatürk Dolmabahçe sarayında da Quran oxutdurmuş, ayələri oxuyub izah etdirərək mənası üzərində araşdırmalar aparmışdır.

## Atatürkün dünyəvilik anlayışı



Atatürk dünyəviliyi, din və vicdan azadlığının təməli olaraq görmüşdür. Lakin tarixdə və müasir dövrdə dünyəvilik səhv başa düşülmüş, səhv tətbiq olunmuş, şüurlu olaraq bəzi kütlələr tərəfindən təhrif edilməyə çalışılaraq "dinsizlik" kimi önə sürülmək istənmişdir. Halbuki, gerçəkdə dünyəvilik dövlətin, dinlər qarşısında tərəfsiz qalaraq insanlara din azadlığını təmin etməsidir.



Dünyəvilik qanununun məqsədi, gerçəkdə inancı azadlaşdırmaqdır. Dövlət, hansı din və ya məzhəbdə olursa olsun, vətəndaşına vicdan, ibadət və dini həyata azadlığı təmin edir. Atatürkün dünyəvilik qanunu dövlətin xalqını, bir dini qəbul etmə, o dinin gərəklərini tətbiq, ya da tətbiq etmə mövzusunda öz vicdanları ilə baş-başa buraxması və onlara azad seçim şansı verməsidir.

Diqqət yetirilsə, haqqında danışılan dünyəvilik anlayışı İslamın əslinə də çox uyğundur. İslam dinində də heç kim bir başqasını iman etməyə və ya ibadətlərini etməyə məcbur edə bilməz. Necə ki, Allah rizası güdülmədən (məsələn, təzyiq altında) edilən ibadətin də Allah qatında bir qarşılığı yoxdur. Bu səbəblə, Atatürk Türkiyə Cümhuriyyəti üçün dünyəviliyi seçmiş, şəxslərin din və ibadət azadlığını verərək dövlətin dinə qarışmamasını təmin etmişdir. İslam əxlaqında da adam, heç bir təzyiq olmadan, ancaq azad iradəsi ilə dini yaşayar. İnsanlara kənardan müdaxilə ancaq təşviq etmə, izah etmə, öyüd vermə şəklində olar. Lakin bu mövzuda da məcbur edilə bilməz.

Atatürkün dünyəvilik və dünyəvi cəmiyyət anlayışını ən gözəl izah edən sözlərindən biri bu şəkildədir:

> *"Din və vicdan məsələsidir. Hər kəs vicdanının əmrinə uymaqda sərbəstdir. Biz dinə hörmət edirik. Düşüncə və düşünməyə qarşı deyilik. Biz yalnız din işlərini, millət və dövlət işləri ilə qarışdırmamağa çalışır, özbaşına və mühafizəkar hərəkətlərdən çəkinirik."*36

Din mövzusunda yaradılan süni gərginliklər isə, ancaq Atatürkün tətbiq etdiyi düsturla təhlil edilə bilər. Atatürk İslama inanan səmimi dindar olaraq, dünyəviliyi din və vicdan azadlığının təməli olaraq qəbul etmişdir. Həqiqi dindarlara və vətənpərvərlərə düşən vəzifə Atatürkün də etdiyi kimi xurafatlara və batil inanclara qarşı həqiqi İslamı müdafiə edərək və öyrədərək elmi olaraq mübarizə aparmaq, digər yandan da Atatürkün mirasını "din əleyhdarlığı" kimi göstərmək istəyən materialist-Marksist düşüncəyə qarşı olmaqdır.

III FƏSİL

# ATATÜRKÜN GÖZƏL ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ

## Dürüst dövlət adamı idi



*"Böhtan və yalan ən böyük yalanlardır. Quran "böhtana cürət edənlər, yalan danışanlar mömin deyildirlər" deyir.37*

Atatürk dünyanın axirətdəki əbədi mükafata çatmaq üçün bir imtahan yeri olduğunu bilirdi. "Dünya bir imtahan meydanıdır, imtahanda müvəffəq olmadan lütfkar rəftarlar gözləmək boşunadır"38 şəklindəki sözü bu mövzudakı inancının bir ifadəsidir. Bu və buna bənzər sözləri ilə insanları Allahın razılığına görə davranmağa təşviq etmişdir. Bu səbəblə, şəxsi həyatında olduğu kimi dövlət rəhbərliyində də əxlaqi dəyərlərdən güzəştə getmədən vicdanı ilə hərəkət etmişdir.

> *“Hədəfə çatmaq üçün hər yol mübahdır” şəklindəki Makyevelist məntiqə qarşı olan və əxlaqi dəyərlərdən heç vaxt güzəştə getməməyə inanan Atatürk özü kimi ətrafındakı insanların da dürüst olmasını istəyər, dürüst olmayan insanları təsdiq etməzdi. Çox tolerant olmasına baxmayaraq, əsla sevmədiyi və bağışlaya bilməyəcəyi iki şey vardı. Bir yaxınına sevmədiyi bu iki mövzu soruşmuşlar, qarşılığında bu cavab alınmışdır:*

> *“Yalan danışmaq və əmir vermək, bu iki səhvdən başqa bağışlaya bilməyəcəyi qəbahət yox idi.”39*

Dürüst olmamaq Allahın çirkin gördüyü və İslam əxlaqına zidd davranışdır. Allah Quranda, “Vay halına iftiraçının və günahkarın!” (Casiyə surəsi, 7) hökmü ilə insanları xəbərdar etmişdir. Başqa bir ayəsində də “Qəhr olsun yalançılar!” (Zəriyət surəsi, 10) deyərək dürüst olmamağın Allah qatında böyük cəzası olduğuna diqqət çəkmişdir. Buna görə də, Allahdan qorxan insanlar həyatının hər anında yalan danışmaqdan çəkinərlər.

Atatürkün müvəffəqiyyətinin ardındakı sirr, şəxsi həyatında olduğu kimi dövlət rəhbərliyində də dürüst davranmasıdır. Uzaqgörənliyi ilə, hansı vəzifəyə kimi yerləşdirəcəyini yaxşı bilən Atatürk, dövlət rəhbərliyində səriştəli olanlara məsuliyyət verərək Allahın əmr etdiyi kimi “əmanəti əhlinə” təslim etmişdir. Bu şəxslər yaxın dostları da olsa dövlətin təhlükəsizliyini düşünərək əsla iltimas etməmişdir. İslam dininin bir əmri olan əmanəti əhlinə vermə işi ilə Atatürk beləliklə Türk xalqını da dürüstlüyə və işlərində səriştəli olmağa təşviq etmişdir. Atatürkün bu mövzudakı bir sözü belədir:

> *“Yoldaşlar məndən ayrı-seçkilik gözləməyin. Hamınız mənim gözümdə qiymətli, əhəmiyyətli qardaşlarımsınız. Amma hamınıza göstərdiyim hədəf uca müqəddəs hədəfdir. Hansınız daha gözəl üsulla, müvəffəqiyyətlə oraya çatsanız, onu əllərim çatlayana qədər alqışlayacaq, təqdir edəcəyəm. Məndən iltimas və tərəf tutma gözləməyin, yoldaşlar, adam olanlar, insan olanlar, yüksək idealı olanlar dəyərlərini göstərsinlər. Mənim sizə qardaşca söyləyəcəyim budur, bütün yoldaşlarımıza söyləmək məcburiyyətindəyəm ki, mən o milli hədəfə bütün millət kütləsini icra etmək üçün, təbii olaraq əxlaqi bir vəziyyət, bunu istəyərəm.”40*

## Təvazökar lider idi



> *"Bir insan böyük olmaqdan bəhs edəndə mənim xoşum gəlmir. İnsan məmləkəti qurtarmaq üçün əvvəla böyük insan olmaq lazımdır deyər. Və bunun üçün nümunə olar, onun kimi olmayınca məmləkətin qurtarıla bilməyəcəyi qənaətində olarsa, bu insan deyil."41*

Əhəmiyyətli bir mömin xüsusiyyəti olan təvazökarlıq haqqında Allah Quranda belə buyurur:

> *"Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzərlər..." (Furqan surəsi, 63)*

Atamız da bu əxlaqı göstərmiş, bütün dünyaya ad salan zəfərlərini və üstün müvəffəqiyyətlərini heç bir zaman şəxsinə aid etməmiş, həmişə xalqının müvəffəqiyyətini və gözəl xüsusiyyətlərini ön plana çıxarmışdır. Xalqının içinə qarışmış bir qəhrəman olaraq vəzifənin, ünvanın heç bir əhəmiyyəti olmadığını tez-tez vurğulamışdır:



*"Həqiqətləri bilən, ürək və vicdanında mənəvi müqəddəs həzlərdən başqa zövq daşımayan insanlar üçün nə qədər yüksək olursa olsun, maddi mövqelərin heç bir dəyəri yoxdur."42*

*"Mənim şan və şərəfimdən danışmaq da yanlışdır. Yaxşı dinləyin, məsləhətim budur ki, içinizdən hər hansı insan çıxarsa, şan-şərəf iddiası güdərsə və bənzərsiz olmaq istəsə, başının bəlasını tapar. Aid olduğu Türk xalqının şan və şərəfi varsa, mənim də bir fərdi olmaq sifəti ilə şanım və şərəfim vardır. Əsla başqa deyiləm."43*



Onun gözündə böyük olmaq nə pulla, nə malla, nə də təzyiqə əsaslanan nüfuzla meydana gəlir. Xalqın gözündə böyük insan olmağın yollarını səmimi şəkildə ifadə edərkən Atamızın təvazökarlığı bir daha ortaya çıxır:

> *"Böyük olmaq üçün heç kimə kompliment deməyəcəksən; heç kimi aldatmayacaqsan; məmləkət üçün həqiqi ideal nədirsə, onu görəcək, hədəfə gedəcəksən. Hamı sənin əleyhinə olacaq; hamı səni yolundan döndərməyə çalışacaq; lakin sən buna fikir verməyəcəksən; önünə sonsuz maneələr qoyacaqlar. Özünü böyük deyil, zəif, kimsəsiz, vasitəsiz dərk edəcək, kimsədən kömək gəlməyəcəyinə qane olaraq bu maneələri aşacaqsan."44*

Atatürk üstün əxlaqına görə həmişə təvazökar bir həyat istəmişdir. Şəxsi ehtiras, mal və mülk kimi dünyəvi arzulardan özünü uzaq tutmuş, həqiqi zənginliyin mənəviyyatda axtarmalı olduğunu müdafiə etmişdir:

> *"Mal və pul mənə ağırlıq verir. Bunları soylu xalqıma geri verməklə böyük rahatlıq duyuram. Zənginlikdən nə çıxar? İnsan zənginliyi öz mənəvi şəxsiyyətində axtarmalıdır."45*

Atatürkün təvazökarlığı, qarşısındakı insanların fikirlərinə verdiyi dəyəri, Türkiyədə olduğu dövrdə Atatürklə çox yaxın dost olan, Türkiyə cümhuriyyəti nəzdində ilk Amerikan səfiri general

Charles H. Sherrill öz kitabında təfərrüatı ilə izah etmişdir. Sherrillin izah etdiklərindən, Atatürkün yalnız qarşısındakı şəxslərin fikrinə dəyər verməklə qalmadığı, öz səhvlərini də böyük təvazökarlıq ilə düzəltdiyi aydın olur. Atatürkdən dinlədiklərini, şəxsi təsbitlərini, ölkəsində və dünyada çox böyük əks-sədalar oyandıran “Qazi ölkəsində səfirlik” adlı kitabında yazan Sherrill belə deyir:

> *“Elə zamanlar oldu ki, xatirələri içində mənim bənzərsiz xüsusiyyətdə gördüklərimi düzəltdi. “Xeyr!.. Mən bunda yanılmışam. Əgər belə düşünsəydim və etsəydim, nəticə daha mükəmməl olacaqdı” dediyi az deyildi. Realizm onun qorxmadığı şey idi. Bu həqiqətləri izah edərkən yaşayırdı, əsas peşəsi olan hərbiyə çox fərqli məlumatları o yaşda necə sığdırmasına, harmoniya yaratmasına təəccüblənməmək və heyranlıq duymamaq mümkün deyildi...”46*

## Çətin anlarda da gözəl əxlaqını qoruyardı



*“Fəlakətlər insanları və ağılları başında millətləri həmişə əzmkar, dinc hücumlara sövq edər.”47*

Bir fərdin insani keyfiyyəti, yüksək şəxsiyyəti, dəyanəti çətin anlarda ortaya çıxar. Müsəlman əxlaqına sahib Atatürk də şərtlər nə olursa olsun, həmişə əzm və qərarlılığını Türk xalqına göstərmiş, vəzifələrini yerinə yetirərkən, şübhəsiz ki, çox çətin maneələrlə qarşılaşmış, əsla güzəştə getmədiyi İslam əxlaqı sayəsində də böyük müvəffəqiyyətlər əldə etmişdir. Məhz bu xüsusiyyətləri ona “çağın böyük dövlət adamı” olma xüsusiyyətini qazandırmışdır. Çünki çox az lider tarixin axışını bu cür dəyişdirə bilmiş və “tarixi lider” ünvanını ala bilmişdir.

Türkiyə Cümhuriyyətinin müasir mədəniyyət səviyyəsinin üzərinə yüksəlməsi üçün çalışan Mustafa Kamal Atatürkün ən diqqət çəkici xüsusiyyətlərindən biri çətinliklər qarşısında müqavimət göstərməsi, qərar verdiyi bir şeyə əzmkar olması idi. Qarşılaşdığı çətinliklər və mənfi hallardan əsla ümidsizliyə düşməzdi. İnandığı dəyərlər üçün qərarlı şəkildə mübarizə aparardı. Sürətli və ardıcıl qərarlar verər, “Tətbiq edən, icra edən, qərar verəndən həmişə daha qüvvvətlidir.”48 deyərək əhəmiyyətli gördüyü işin dərhal edilməsini istəyərdi.

Necə ki, Quranda da nümunəvi əxlaqa sahib olan insanların çətinlik zamanında da gözəl əxlaqından güzəştə getmədikləri, qarşılaşdıqları çətinliklərə görə heç bir zaman ümidsizliyə qapılmadıqları xəbər verilir. Ali İmran surəsində səmimi müsəlmanın üstün xüsusiyyətləri bu şəkildə ifadə edilir:

Bunlar o kimsələrdir ki, insanlar onlara: “Həqiqətən, (düşməniniz olan) insanlar sizə qarşı (əsgər) toplayıblar. Onlardan qorxun!” - dedikləri zaman bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl vəkildir!” - dedilər. (Ali İmran surəsi, 173)

Üzərində müsəlman qərarlılığı olan Mustafa Kamal da xalqına çətinliklər qarşısında qorxmamağı, əks fəaliyyətlərdən təsirlənməməyi öyrətmişdir. Atatürk mövzunu bu sözləriylə təsvir etmişdir:

*“...Hamı sənin əleyhinə olacaq. Hamı səni yolundan döndərməyə çalışacaq. Önünə sayıla bilməyəcək çətinliklər qoyacaqlar, özünü böyük deyil, kiçik, zəif, vasitəsiz dərk edərək kimsədən kömək gəlməyəcəyinə inanaraq bu çətinlikləri aşacaqsan...”49*

Atatürk çətinliklərə sinə gərmiş, millətinin və dövlətinin davamlılığı üçün ölümü belə gözə almışdı. Xalqının ona duyduğu böyük güvənin təməlində, onun çətinliklər qarşısında göstərdiyi cəsarəti və qorxmadan, yorulmadan müqəddəs məqsədi üçün mübarizəsini davam etdirməsi yatır. Quran əxlaqını əməlləri ilə göstərən Atatürkü öz sözlərindən tanıyaq:



*“Ölümə doğru ən çox atılanlardan biriyəm. Güllə yağışı altında bir çox müharibələrə iştirak etdim. Hətta bir dəfə ölüm ürəyimin yanından sıyıraraq keçdi. Ürəyimin üzərində bir saat vardı və bu saat güllə parçasının şiddətini azaltdı. Böyük bir qəlpə parçası ürəyimin tam üzərinə dəydi, sarsıldım, əlimi sinəmə apardım, qan axmırdı. Hadisəni podpolkovnik Servet bəydən başqa heç kim görməmişdi. Ona barmağımla susmasını əmr etdim. Çünki vurulduğumun bilinməsi cəbhədə çaxnaşma yarada bilərdi. Ürəyimin üzərində cibimdə olan saat parça-parça olmuşdu. O gün axşama qədər ordunun başında daha canfəşanlıqla vuruşdum.”50*

Atatürk ölümdən əsla qorxmayan, çox cəsur lider idi. Düşmənin sayı, gücü və böyüklüyü onun qərarlılığına təsir etməz, heç bir çətinlik onu hədəflərindən döndərə bilməzdi. Mahmud Yesari Atatürkün cəsarətini açıqlayarkən, onun göz açdırmayan atəşə gözlərini qırpmadan baxa biləcək bir cəsarətə sahib olduğunu söyləmişdir:

> *"Mən ona yol göstərərkən, günlərdən deyil, aylardan bəri sipər həyatına alışmış olduğum halda titrəyirdim, lakin o boyunun uzunluğuna baxmayaraq, ayaqlarının ucuna çıxaraq, sipərlərin üzərindən düşmən sipərinə baxardı. Düşmən sipərinə baxmaq heç asan deyildi. Düşmən atəşdən göz açdırmazdı. O bu göz açdırmayan atəşə gözlərini qırpmadan baxardı. Onu ilk dəfə "qorxu bilməyən insan" kimi tanıdım."51*

Ölkəsi və milləti üçün həmişə böyük xəyallar arxasında qaçan Ulu öndər, Türkiyəni idealındakı müvəffəqiyyətə çatdırmaq üçün lazım olsa canını fəda etməyə hazır idealist insan idi. Mübarizəsi əsnasında bir çox hallarda ölümün astanasından döndüyü halda, bir an olsun mətanətini və cəsarətini itirməmiş, xalqına da cəsarət aşılamışdır. Mustafa Kamal Atatürk təvazökar həyatı, dürüstlüyü və gözəl əxlaqı ilə olduğu qədər, cəsarəti, çətinliklər qarşısında baş əyməməsi, səbirli olması və əzmi ilə nümunəvi müsəlman olaraq millətinə şövq qaynağı oldu.

## Özünü yetərli görməyə və ya öyünməyə qarşı idi

> *"Xeyr! İnsan, doğrudan da, həddini aşır - özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə." (Ələq surəsi, 6-7)*

Milli və mənəvi dəyərlərimizin mühafizəsi üçün çox çalışan Atatürk insanın özünü yetərli görməsi və öyünməsinin gözəl əxlaq xüsusiyyəti olmadığını, öyünməyin insana faydadan çox zərər gətirəcəyini hər fürsətdə dilə gətirmişdir. Həqiqətən də, müvəffəqiyyətli bir iş edildiyi təqdirdə insanın onunla öyünməsi, özünü yetərli görməsinə səbəb olaraq uzun müddətdə onu ətalətə aparar və daha çox müvəffəqiyyət əldə etməsinə mane olar. Atatürk bu mövzuda belə demişdi:

> *"Bir insan həyatında müvəffəqiyyətli bir iş etmişsə, o iş tarixə düşmüşdür. O şəxs yalnız onunla öyünərək qalmaq istəsə, bu insanı tənbəlliyə aparar və yeni müvəffəqiyyətlərdən məhrum edər. Onun üçün çalışmaq və daim müvəffəqiyyət axtarmaq hamı üçün əsas olmalıdır."52*

İnsanın nəfsi öyünməyə və hər cür əskiklikdən özünü uzaq görməyə meylli olaraq yaradılmışdır, zənginlik, müvəffəqiyyət, şan, şöhrət kimi şeylər insanın dünyada sınanması üçün nəfsinə cazibədar qılınmışdır. Allah bu həqiqəti insanlara belə bildirir:

*"Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildi." (Hədid surəsi, 20)*

## Atatürk ədalətli insan idi

*"Heç kimin haqqına təcavüz etmək istəmədiyimiz kimi, digərləri tərəfindən də həyat və istiqlalımıza riayət olunmasından başqa bir idealımız yoxdur."53*

Yalnız nəfsinin istək və ehtiraslarını məqsəd halına gətirib, sadə və şəxsi mənfəətlər arxasınca qaçıb, vicdanlarını korlaşdırmış insanların ədalətli olmaları mümkün deyil. Ədalətli olmaq, ancaq şəxsi ehtiraslarını tərk edən insanların göstərə biləcəyi bir xüsusiyyətdir.



◉ "Xeyr! Doğrudan diri insan özünü möhtac görmədikcə." (Ələq surəsi, 6-7)

Quranda Allah insanlara ədalətli davranmalarını, ədalətdən güzəştə getməmələrini əmr etmiş və bunu bir mömin xüsusiyyəti olaraq ifadə etmişdir:

> *"...Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir!..." (Nisa surəsi, 58)*

Ədalət anlayışının təməlini İslam dinindən alan Atatürk də gətirdiyi müasir Türk hüquq sistemi ilə hər kəsin insan kimi ədalətlə yaşamasına mühit hazırlamışdır. Hər kəsin haqqını qoruyan, haqsızlığın qarşısını alan, günahkar-günahsız ayrı-seçkiliyi ən dəqiq şəkildə həyata keçirən sistem meydana gətirmişdir. Atatürk insana dəyər verən, ölkəni xaosdan çıxarıb, həqiqi sülhə qovuşdurmağı məqsəd qoyan bu hüquq sisteminin əhəmiyyətini belə dilə gətirmişdir:

> *"Ədalət gücü müstəqil olmayan bir millətin dövlət halında varlığı qəbul oluna bilməz. Vətəndaş ancaq məhkəmə qərarı ilə cəzalandırılar. Bu məmləkətdə hökmsüz vətəndaş öldürülə bilməz."54*

Ədaləti təmin edə bilən dövlət güclüdür, vətəndaşları da o nisbətdə hüzurlu və güvəndədirlər. Çünki dövlətdən yana gözlədiyi ədalətin əskiksiz yerinə gəldiyini görən fərdlərin həm dövlətinə olan hörməti və etimadı artar, həm də narahatlığa qapılaraq öz haqqını özü axtarmağa cəhd edib cinayət törətməyə meyl göstərməz. Eyni zamanda bu sistemin ən həssas şəkildə işlədiyini görsə, həm öz ədalət anlayışı güclənər, həm də ətrafını ədalətli olmağa təşviq edər. Atatürkün ədalət anlayışı sayəsində də Türk millətinin həm fərdi, həm də ictimai haqları zəmanət altına alınmışdır. Bu da Atatürkün millət mənfəətlərini öndə tutan bənzərsiz lider xarakterindən və gözəl əxlaqından qaynaqlanır.

## Çalışqanlığı ilə bütün dünyaya nümunə idi



*"Böyük dinimiz işləməyənin insanlıqla əlaqəsi olmadığını bildirir. Bəzi şəxslər müasir olmağı kafir olmaq hesab edirlər. Əsl küfr onların bu zənnidir. Bu səhv təfsiri edənlərin məqsədi İslamın kafirlərə əsir olmasını istəmək deyil, bəs nədir?"55*

Dininə və mənəvi dəyərlərinə bağlı insan olan Mustafa Kamal çalışqanlıq mövzusunda xalqına şəxsən nümunə olmuş, məsuliyyət sahibi bir insan idi. "Məsuliyyət yükü hər şeydən, ölümdən də ağırdır" deyən Atatürk Türkiyəni "nümunə ölkə" mövqeyinə gətirmə məsuliyyətini boynuna götürmüşdü.

Atamız yalnız müasir bir sistem qurmanın yetərli olmayacağına, Türk millətinin itirdiyi zamanı çox çalışmaqla bağlayacağına inanırdı. Bu sistemin davamlı çalışılaraq yaxşılaşdırılmalı olduğunu da hər fürsətdə vurğulayırdı. Atatürk Türk millətini inkişaf etdirəcək fikirlərin tətbiq olunmasının çox gecikdiyini, bunu ancaq daha çox çalışmaqla düzəltməyin mümkün olacağını düşünürdü.

Yeni bir dövlət qurularkən ictimai, siyasi və iqtisadi bir çox sahədə edilməli olan çox iş varkən o, "bir şeyə ehtiyacımız vardır, çalışqan olmaq. Sərvət və onun təbii nəticəsi olan rifah və səadət tək və ancaq çalışqanların haqqıdır"56 deyərək xalqını şövqləndirir və milləti xidmət etməyə yönəldirdi. Atatürk bu sözü ilə də cəmiyyəti xidmət etməyə təşviq etmişdi:

> *“Millətə əfəndilik yoxdur. Xidmət vardır. Bu millətə xidmət edən onun əfəndisi olar.”57*



◉ “Boş qaldığın zaman, durmadan yorulmağa davam et.” (İnşirah surəsi, 6-7)

Atatürk Türk milləti üçün “əfəndilik yoxdur, xidmət vardır” deyərkən əslində xalqa Quran əxlaqı istiqamətində əmrlər verirdi. Çünki Quranda da çalışmaq, dayanmadan xidmətlə məşğul olmaq bir üstünlük olaraq göstərilir. Allah yolunda haqq vəzifə üçün çalışmaq, bir iş bitdiyi zaman başqa bir işə keçərək dayanmadan yorulmaq inananlar üçün bir ibadətdir. Əhəmiyyətli müsəlman xüsusiyyəti olan çalışqanlıq ayələrdə belə əmr edilir:

> *“İşlərini qurtaran kimi Allah yolunda çalış!” (İnşirah surəsi, 6-7)*

Atatürk ayədə əmr edildiyi kimi xalqı çalışmağa, bir işi bitirib başqa bir işə yönələrək “dayanmadan yorulmağa” dəvət etmiş, yuxarıda bəhs edildiyi kimi Türk millətinin Qərb ölkələri qarşısındakı əskikliklərini ancaq çox çalışmaqla bağlayacağına inanmışdır. Atatürk dəvətinə razılıq verən və özünü yorulmadan izləyəcəklərini söyləyən şəxslərə bunları söyləmişdir:

*“Yorulmadan məni izləyəcəyinizi söyləyirsiniz. Lakin yoldaşlar, yorulmadan nə deməkdir? Əlbəttə, yorulacaqsınız. Mənim sizdən istədiyim şey, yorulmamaq deyil, yorulduğunuz zaman da dayanmadan getmək, yorulduğunuz dəqiqədə də dinlənmədən məni izləməkdir. Yorğunluq hər insan, hər məxluq üçün təbii haldır. Lakin insanda yorğunluğu məğlub edə biləcək mənəvi qüdrət vardır ki, məhz bu qüvvət yorulanları dinlənmədən icra edər. Siz, yeni Türkiyənin gənc övladları! Yorulsanız da məni izləyəcəksiniz. Dinlənmək üçün getməyə qərar verənlər əsla və əsla yorulmazlar. Türk gəncliyi bu məqsədə, bizim yüksək idealımıza dayanmadan, yorulmadan gedəcəklər.”58*

Uca Türk millətinin irəliləyə bilməsi, müasir millətlər arasında layiq olduğu yeri ala bilməsi üçün fərdlərinin çalışqanlıqda Ulu öndəri nümunə götürməlidirlər. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v.) də “İki günü eyni olan mömin zərərdədir” demişdir. Peyğəmbərimiz (s.ə.v.) əsrlər, ya da aylarla gözləməyi, hər gün irəliləməyi tövsiyə etmişdir. Bu tövsiyəni ən yaxşı yerinə yetirən şəxslərdən biri də, şübhəsiz, Mustafa Kamaldır. Müvəffəqiyyətli hərbiçi, müvəffəqiyyətli bir komandir olan Atatürk millətimizə çalışqanlıqda şəxsən özü nümunə olmuşdur.

Atatürkü tanıyanlar onun üçün iş saatı deyə bir şey olmadığını, edəcəyi işi bitirənə qədər yatmadan, istirahət etmədən, yemək yemədən çalışdığını söyləyərlər. Xüsusilə, mübarizə illərində normal yuxu nədir bilmədiyini, gecələri yatmaqdan xoşu gəlmədiyi üçün otağına çəkilib yatmaq yerinə oxuduğu üçün, Mahmut Esat Bozkurt tərəfindən ona “Türk millətinin gecə gözətçisi” adı verildiyi deyilir. Yaxın mübarizə yoldaşlarından biri onun bu tərəfini belə izah edir:

*“Çankaya köşkündə “Böyük Nitq” hazırlanarkən 48 saat heç gözünü qırpmadan yazı diktə etdirdiyini xatırlayıram. Belə ki, yazı yazmaqdan yorulanlar dəyişir, lakin o minlərlə sənəd arasından ayırdığı qeydləri ilə böyük əsərlərini tamamlamaq üçün yuxusunu belə verməkdən çəkinmirdi.”59*

## Əzmi ilə "cəsur" bir lider idi



*"Millətin istiqlalını yenə millətin əzm və qərarı qurtaracaq."60*

Böyük liderlərin əsas xüsusiyyətlərindən biri "cəsur" olmaq, yəni inandığı bir şeyi həyata keçirmək üçün önündəki maneələrin öhdəsindən gələ bilməkdir. Atatürkün ən diqqət çəkən xüsusiyyətlərindən biri bu mənada "cəsur" olmasıdır; idealındakı səmimiyyəti, qərarlı və səbirli olması, bütün zamanını hədəflərini həyata keçirmək üçün həsr etməsi və inandığı dəyərlərdən əsla güzəştə getməməsi, onun bu xüsusiyyətindən qaynaqlanır.

Quranda Allah müsəlmanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri olaraq qərarlı və stabil olmalarına diqqət çəkir, "Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!" (Əhqaf surəsi, 35) şəklində buyuraraq, əzimli olmağın gözəl əxlaq xüsusiyyəti olduğunu ifadə edir. Bu səbəblə Mustafa Kamal Atatürkün əzmindən və inancından heç bir şəkildə güzəştə getməməsi, müsəlman Türk gənclərinin nümunə götürməli olduğu xüsusiyyətidir.

Mustafa Kamal doğru bildiyi yolda tək qalacağını bilsə də tək başına gedə biləcək bir insandır.

Atatürkün illərlə yanında olan dostu Celal Bayar onun bu xüsusiyyətini belə izah edir:



*"Atatürk prinsip sahibi bir insan idi. Qəti inandığı düşüncələrini nə qədər çətin və təhlükəli olursa olsun, tərəddüdsüz qanunlaşdırar və müvəffəqiyyət əldə edənə qədər əl çəkməzdi."61*

Böyük öndərin mənəvi qızı Afet İnan xanım isə onun bu sarsılmaz tərəfini belə ifadə edir:

*"Mustafa Kamal cəsur və çox əzmli idi. Edəcəyi işlərdə başarılı olmaq üçün bütün şərtlərin hazırlığını görər və qarşısındakının nələr edə biləcəyini hesab edərək onlara qarşı tədbirli hərəkət etməyi əvvəldən qərarlaşdırardı. Ən pis ehtimalı belə əvvəldən düşünüb tədbirini alardı."62*

Atatürkü tanıyan bir başqa adam da onun əzmini bu şəkildə təsvir etmişdir:

*"Mustafa Kamal hər edəcəyi işi günlərlə, bəzən aylarla təfərrüatı ilə düşünərək hazırlayardı. Bir dəfə qərar verəndə onu heç bir çətinlik yolundan döndərə bilməzdi. Etdiyi hər işdə onun əzmi və xarakteri açıqca oxunardı. Bu gün Türkiyədə əllə tutulacaq nə varsa, onun qüdrət və qabiliyyətinin, qorxmaq bilməyən işinin, gecə-gündüz ara vermədən çalışmasının meyvəsidir."63*

Dövlət və millətin rifahı və gələcəyi üçün çalışanlar Türkiyəni dünyaya istiqamət verən güclü bir ölkə edə bilmək üçün, onun göstərdiyi əzm və qərarlılığı eynilə tətbiq etmək məcburiyyətindədir. Ancaq bu şəkildə böyük öndərin izindən gedə bilər, ölkəmizi və millətimizi layiq olduğu səviyyəyə çıxara bilərik.

## Həmişə başqalarının fikrinə əhəmiyyət verərdi

*"Dünyada dövlət üçün qanuni olan tək bir prinsip vardır ki, o da müşavirədən ibarətdir. Hökumət üçün ilk və təməl şərt yalnız və yalnız müşavirə etməkdir."64*

Allah Quranda müsəlmanlara işlərində "şura" (müşavirə) etmələrini tövsiyə etmiş, hər biləndən daha yaxşı bilən biri olduğunu xəbər verərək qarşılıqlı fikir alış-verişinin bərəkətli olacağına diqqət çəkmişdir. Məsələn, Ali-İmran surəsinin, 59-cu ayəsində Allah Peyğəmbərimizə, "...İş mövzusunda onlarla müşavirə et..." (Ali-İmran surəsi, 159) şəklində buyuraraq müşavirənin əhəmiyyətli olduğunu bildirmişdir.



Atatürk də millətinə xidmət yolunda bütün varlığını ortaya qoymuş dindar bir öndər olaraq milli mənfəətləri daim ön planda tutmuş və hər işində müşavirəyə müraciət etmişdir. Türkiyə Cümhuriyyətini irəliyə aparacaq qərarları almadan əvvəl, daim məlumatına və əxlaqına güvəndiyi şəxslərlə fikir alış-verişində olmağı prinsip etmişdir.

Atatürkün otuz illik dostu olması səbəbi ilə xüsusi həyatını çox yaxından tanıyan cənab Süreyya Yiğit bu mövzuda belə deyir:

> *"...Atatürk, hər hansı bir məsələyə qərar verməzdən əvvəl hər kəsin ayrı-ayrılıqda fikrini dinləyərdi."65*



Atatürkün fikir alış-verişinə verdiyi dəyəri Hasan Rıza Soyak da bu sözləriylə izah edir:

> *"Atatürk hər məmurun üzərində aldığı işləri, ağlından, zəkasından və qanuni səlahiyyətlərindən son həddinə qədər istifadə edərək, zamanında həll etməyə çalışmasını və məsuliyyət almaqdan çəkinməməsini istəyərdi. İşlə əlaqəsi olanların və məmurların fikirlərini dinləmədən, hətta özləri ilə müzakirə etmədən bir mövzu haqqındakı fikrini bildirməzdi. Mən, mahiyyətindəki bütün iş həyatım əsnasında məsləhət və fikir alış-verişi etmədən bir əmr aldığımı xatırlamıram. Eyni zamanda, bir çox çıxışlarında özünə ağılına gələn hər hansı bir fikri ifadə etməkdən çəkinmək hissinə düşdüyümü xatırlamıram."66*

Onu yaxından tanıyanların sözlərində də açıqca ifadə edilən nümunə təvazökarlığını Atatürkün öz ifadələrində də görmək mümkündür. Məsələn, bir gün Atatürkə gücünün və iqtidarının sirri soruşanda, "qulaq asaram" demişdir. Qərar mexanizmi özü olduğu halda nə üçün hər kəsi dinlədiyi soruşanda isə, hər kəsdən öyrənəcəyi bir şeyin olduğunu söyləmişdir.67

## Atatürkün millətini “gizli yaxşılığa” dəvəti

*“Dünyanın filan yerində bir narahatlıq varsa, “mənə nə” deməməliyik. Eynilə öz aramızda olmuş kimi onunla maraqlanmalıyıq.”68*

Quranda həmişə özündən əvvəl başqasının istəyini ön planda tutma, onun nəfsini öz nəfsindən üstün tutma, mala olan sevgiyə baxmayaraq, malı ehtiyacı olana vermə, ac olanı doyurma kimi gözəl əxlaqi xüsusiyyətləri izah edilir. Atatürk gözəl əxlaqı ilə bütün müsəlmanlara bu mövzuda da nümunə olmuşdur. Millətin hüzur və təhlükəsizliyi üçün bütün həyatını Türk xalqına həsr etmiş, millətinin səadəti və rahatı üçün öz rahatlığını fəda etmişdir. Atatürk öz sözləri ilə bu mövzunu belə açıqlayır:

*“Həyatımın bütün mərhələlərində olduğu kimi son zamanların böhranları və fəlakətləri arasında da elə bir dəqiqə olmamışdır ki, hər cür hüzur və istirahətimi, hər növ şəxsi duyğularımı, millətimin hüzuru və səadəti adına fəda etməkdən həzz almayım.”69*



◉ “Bizim üçün sülh demək, həqiqi həyatımızın təmiminə yarayan paltar hazırlamaq deməkdir.”

Allahı razı salmaq üçün edilən yaxşılıqların gizli olması Allah qatında daha məqbuldur. Bu əxlaqı yaşayan insanlar, fitrətlərinə uyğun hərəkət etdikləri üçün eyni zamanda etdiklərindən

böyük həzz alarlar. Mustafa Kamal Atatürk də millətimizi gələcək nəsillər üçün çalışmağa dəvət edərkən ixlaslarının zədələnməməsi üçün xalqı "gizli şəkildə yaxşılıq etməyə" dəvət etmişdir:

> *"Bütün varlığını öz şəxsində görən adamlar bədbəxtdirlər. O insanın şəxs sifəti ilə məhv olacağı aydındır. Hər hansı bir şəxsin yaşadıqca məmnun, xoşbəxt olması üçün lazım olan şey özü üçün deyil, özündən sonra gələcəklər üçün çalışmaqdır. Həyatda tam zövq ancaq gələcək nəsillərin şərəfi, varlığı və səadəti üçün çalışmaqda ola bilər. Bir insan belə hərəkət edərkən "məndən sonra gələcəklər görəsən belə bir ruhla çalışdığımı fərq edəcəklərmi" deyə düşünməməlidir. Hətta ən xoşbəxt olanlar, xidmətlərinin bütün nəsillər tərəfindən gizli qalmasını seçəcək xarakterdə olanlardır."70*

## Sülhpərvər olması: Yurdda sülh, dünyada sülh

> *"Bizim üçün sülh, real həyatımıza xidmət edən paltar istehsal etmək deməkdir."71*

Dindar insan olan Mustafa Kamal sülhü milləti rifah və səadətə çatdıran ən yaxşı yol olaraq mənimsəmiş, daxili və xarici işlərindəki əlaqələrində həmişə sülhpərvər siyasət aparmışdır.

Mustafa Kamal "biz davakar deyilik, sülhpərvərik. Və dərhal sülhün təsirini görmək, ona kömək və xidmət etmək istəyirik" deyərək sülhpərvərliyi izah edirdi. "Yurdda sülh, dünyada sülh" sanki onun şüarı idi. Həmişə "biz heç kimin düşməni deyilik, yalnız insanlığın düşməni olanların düşməniyik" deyərək müharibənin ancaq nəfsi müdafiə olaraq lazım olduğunu ifadə edərdi. Əks təqdirdə, millətin həyatı təhlükədə olmadan edilən müharibənin "cinayət" olduğunu söyləyərdi.



◉ Atatürk Balkan Paktına üzv ölkələrin baş nazirləri ilə birlikdə (sağdan sola Yuqoslaviya, Yunanıstan, Rumıniya və Türkiyə baş nazirləri).

> *"Milləti müharibəyə aparanda vicdanımda əzab duymamalıyam. Öldürəcəyik deyənlərə qarşı "ölməyəcəyəm" deyə hərbə girə bilərik. Lakin döyüş zəruri olmalıdır. Millətin həyatı təhlükəyə məruz qalmadıqca müharibə cinayətdir."72*

Atatürkün bu yanaşması da İslam dininə tamamilə uyğundur. Sülh sözünün bir mənası da İslamdır. Quranın bir çox ayəsində sülhdən danışılır, bütün insanlar dostluğa və qardaşlığa dəvət edilirlər. Məsələn, Allah insanlara "Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin" (Bəqərə surəsi, 208) şəklində əmr etmişdir. Başqa bir ayədə də, "Əgər onlar sülhə meyl etsələr, sən də ona meyl et və Allaha təvəkkül et! Həqiqətən, O, Eşidəndir, Biləndir." (Ənfal surəsi, 61) şəklində buyurur.

Mustafa Kamal da minlərlə şəhidin qanlarına boyanmış torpaqlarımızı qaytardıqdan sonra artıq sülhün hakim olmasını istəmiş və Türkiyə cümhuriyyətinin ən əsaslı prinsiplərindən biri olan "Yurdda sülh, dünyada sülh" prinsipinə uyğun hərəkət etmişdir.

Atatürkün bütün xarici siyasəti sülh fikrinə əsaslanır. Hər hansı beynəlxalq məsələni sülh yolu ilə həll etməyin Türk millətinin mənfəətinə uyğun olan yol olduğunu təkidlə ifadə etmişdir. Əgər uzun müddətli sülh istənirsə, kütlələrin vəziyyətini yaxşılaşdıracaq, insanlığın rifahı və aclıq kimi problemlərin bitməsi üçün beynəlxalq sahədə yaxşılaşdırıcı tədbirlər alınmalı olduğunu, bütün insanların, həsəd, acgözlülük və kindən uzaqlaşacaq şəkildə tərbiyə edilməli olduğunu müdafiə etmişdir.

*"Türkiyənin təhlükəsizliyini məqsəd edən, heç bir millətin əleyhində olmayan sülh daim bizim düsturumuz olacaq"73 deyən Atatürk 1937-ci ildə Rumıniya Xarici İşləri Naziri ilə etdiyi söhbətdə insana verdiyi dəyəri açıqca ortaya qoyur. Atatürkün sözləri belədir:*

*"İnsan mənsub olduğu millətin varlığını və səadətini düşündüyü qədər bütün dünya millətlərinin hüzur və rifahını düşünməli və öz millətinin səadətinə nə qədər qiymət verirsə, bütün dünya millətlərinin səadətinə xidmət etmək üçün əlindən gəldiyi qədər çalışılmalıdır. Çünki dünya millətləri arasında sakitlik, rahat və yaxşı dolanışıq olmazsa, bir millət özü üçün nə edirsə etsin, hüzurdan məhrumdur. Ən uzaqda zənn etdiyiniz hadisənin bizə bir gün təmas etməyəcəyini bilmirik. Bunun üçün insanlığın hamısı bir bədən və bir millət, bunun bir üzvü olmalıdır. Bir bədənin barmağının ucundakı ağrıdan bütün üzv təsirlənər."74*

IV FƏSİL

# ATATÜRK HANSI CƏMİYYƏT ÜÇÜN MÜBARİZƏ APARDI?

Atatürk Türkiyənin yalnız türklərin olmasını, türklərin "son müstəqil müsəlman-Türk milləti" olaraq qalmasını istəyirdi. Özündən sonra gələcək nəsillərə yaxşı mühit təmin etmək üçün bütün həyatını həsr etmiş atamız Müsəlman Türk millətinin əsarət altında yaşamaması və başqa millətlərin içində assimilyasiya olmaması üçün mübarizə aparırdı. Bu mübarizənin müqəddəs ideal olduğunu ifadə edən Atatürk düşüncəsini belə açıqlamışdı:

> *"Türkiyə türklər üçündür; və Türkiyə müstəqil olmalıdır. Sülh imzalandığı zamankı sərhədləri əsas sayılır. Və razılaşma şərtlərinin bu düşüncələr ilə uyğunlaşmayan hissələrinə qarşı mübarizə ediləcək. Bu bir haqq hərəkatıdır. Və İslam aləminin köməyinə əsaslanırıq. Türklər son müstəqil Müsəlman milləti olduğu kimi müstəqil qalacaq."75*

Ulu öndər Atatürkün məqsədi xalqı bir yerdə yığaraq, Türkiyəni dünyanın ən xoş və ən mədəni ölkələri səviyyəsinə çatdırmaq idi. Beləliklə, Atatürk bütün Müsəlman millətlərin birlik içində hərəkət etməsini və bütün Şərq millətlərinin nümunə götürəcəyi "lider Türkiyə" qurulmasını istəyirdi:

> *"Türkiyə qətiyyətli və əhəmiyyətli səy göstərir. Çünki müdafiə etdiyi bütün məzlum millətlərin Şərq idealıdır. Və bunu bir nəticəyə gətirənə qədər Türkiyə onunla birlikdə olan Şərq xalqlarının birlikdə yürüyəcəyinə əmindir."76*

Ulu öndər Atatürk gözəl əxlaqın, azadlıq və demokratiyanın yaşandığı, Türk-İslam birlik və bərabərliyinin olduğu, irqi və sinfi imtiyazın edilmədiyi, müasir və qabaqcıl bir Türkiyə xəyal edirdi. Bu ölkə fərdlərinin yüksək bir ruha etina edən, ailənin və dövlətin müqəddəsliyinə inanan, qadına dəyər verən, səmərəli və çalışqan fərdlərdən meydana gəlməsini istəyirdi. Dinə hörmətcil dünyəvilik anlayışının suveren olduğu, təzyiqin olmadığı, tolerant, barışcıl bir cəmiyyət düşünürdü. Atamızın xəyalındakı Türkiyə üçün ilk şərt bu haqq idealizm içində bir yerdə getmək idi. İndi bu mövzuları sıra ilə araşdıraq.

Yüksək ruha qayğı göstərən xalq

*"Böyük idealımız ən mədəni, ən çiçəklənən varlığımızı yüksəltməkdir."77*

Müsəlman Türk millətinin İslamdan gələn şərəfi, qüruru və qabiliyyəti çox yüksəkdir. Milliyyətçi-mentalitet bir mədəniyyəti mənimsəmiş türklər bütün dünyanın tanıdığı tarixi missiyaya sahib, yüksək ruh daşıyarlar.



Mustafa Kamal Atatürk özündə daşıdığı yüksək ruha Müsəlman Türk millətinin də layiq olduğunu bilir, bu səbəblə, "Yüksəl Türk, sənin üçün yüksəlmənin sərhədi yoxdur, parol məhz budur" deyərək hər kəsin daim böyük hədəflərə doğru getməsini arzu edirdi.

Atatürkə görə Türk milləti tarixini fəxrlə doldurmuş xalqdır. Tarixin ən qədim dövrlərində bəşəriyyətə qarşı yerinə yetirdiyi mədəni vəzifələrini yenidən, bu dəfə daha mükəmməl bir şəkildə reallaşdırmağa hazırlanan millətdir. Mustafa Kamal bu mövzuda belə deyir:

*"İnsanlar daim yüksək nəcib və müqəddəs hədəflərə getməlidirlər. Bu hərəkət tərzidir ki, insan olanın vicdanını, beynini bütün insanlıq məfhumunu təmin edər. Bu tərzdə gedənlər nə qədər böyük fədakarlıq etsələr, o qədər yüksələrlər."78*

Məhz müsəlman Türk millətinin bu yüksək ruha çatması üçün Mustafa Kamalın yuxarıdakı paraqrafda dediyi kimi müqəddəs dəyərlərə doğru gedilməli və "dörd əllə sarılmalıdır". Atatürk gediləcək bu yolu, "milli əxlaq" adlandırmışdır.

## Milli əxlaqın hakim olduğu cəmiyyət

*"Mükəmməl bir millətə "milli əxlaqın zərurətləri, o millətin fərdləri tərəfindən, heç tərəddüd etmədən vicdanı və hissi bir zövqlə edilər. Ən böyük milli həyəcan məhz budur."80*

Atatürk Türk millətinin başqa millətin idarəsi altında yaşamasını istəmirdi. Bunun üçün yeni qurulan ölkəni gücləndirəcək maddi-mənəvi bir çox tədbirlər görmüşdü.

Atatürk güclü bir millət üçün ilk şərtin milli əxlaq qanunlarına riayət etmək olduğunu ifadə edərdi. Məhz bu səbəblə milliyyətçi və mühafizəkar bir şəxsiyyət təyin edən Atatürk, millətin milli əxlaqla əxlaqlanmasının ancaq müqəddəs dəyərlərə sadiq qalması ilə mümkün olacağını anlamış, millətin sahib olduğu qüruru qorumaq üçün bu sözləri söyləmişdir:

*"Bizim dinimiz, millətimizə alçaq, miskin və zəlil olmağı tövsiyə etməz. Tam tərsinə Allah da, hz. Peyğəmbər də insanların və millətlərin izzət və şərəfini qorumalarını əmr edir."81*



◉ Atatürkün qadınlara verdiyi dəyəri, cəmiyyətin bəkasında qadının yerini və əhəmiyyətini vurğulayan nitqlərində açıq görmək mümkündür.

Atatürk milli əxlaq anlayışını "müqəddəs dəyər" kimi qəbul etmiş, bu inancını dəfələrlə ifadə etmişdir. 1930-cu ildə öz əl yazısı ilə yazaraq təslim etdiyi qeydlər arasında da "əxlaq müqəddəsdir: çünki tayı bərabəri yoxdur. Və başqa heç bir növ dəyərlə ölçülə bilinməz"82 şəklində bir sözü yer alır.

## Həmrəyliyin, birlik və bərabərliyin olduğu bir ölkə

> *"Bütün insanlar ictimai bədənin orqanlarıdır və bu səbəblə bir-birinə bağlıdırlar."83*

Bir milləti millət edən, fərdlərin birlik, bərabərlik və həmrəylik içində olmalarıdır. Çünki fərdlər tək başına hər nə qədər üstün xüsusiyyətlərə sahib olsalar da, həmrəylik içində olmadan tək başlarına bir şey edə bilməzlər. Bunu çox yaxşı bilən milli və mənəvi ittifaq edərsə, "güc yaranacağını" görə bilən Atatürk bu mövzuda bunları söyləmişdir:

> *"Bir millətdə gözəl şeylər düşünən insanlar, çox yaxşı işlər etməyə qabiliyyətləri çatan qəhrəmanlar ola bilər, lakin elə şəxslər yalnız başına heç bir şey ola bilməzlər, bir hissin ümumi ifadəsinin təmsilçisi olmadıqları təqdirdə."84*



Atatürkün fikri və siyasi siyasətinə baxdığımızda Türk millətinin birlik və bərabərliyi üçün milliyyətçi-mentalitet bir siyasəti mənimsədiyini görərik. Hətta Atatürk Türk birliyi deyərkən yurd içində və xaricdə yaşayan bütün türkləri nəzərdə tutmuş, eyni zamanda etnik olaraq Türk olmadığı halda Müsəlman olan və özünü türklərə yaxın görən azlıqları da Türk hesab etmişdir.

Xalqın birlik içində olmasında dinin rolu çox böyükdür. Həqiqətən də, Müsəlman Türk millətinin Qurtuluş savaşı ilə verdiyi böyük mübarizənin müvəffəqiyyətlə nəticələnməsində ən böyük faktor millətin inanclarıdır. Necə ki, tarixdə də Atatürk kimi bir çox lider müharibə, qıtlıq, aclıq kimi çətin anlarda xalqı mənəvi dəyərlərə istiqamətləndirmiş, ancaq bu şəkildə həmrəylik təmin edərək çətinlikləri məğlub etmişlər.

Quranda Allah "Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!" (Ali İmran surəsi, 103) şəklində buyuraraq müsəlmanlara əməkdaşlıq içində hərəkət etmələrini əmr etmişdir. Bir hücum qarşısındakı nümunə müsəlman davranışını isə, "... o kəslər üçün ki, haqsızlığa məruz qaldıqda intiqam alırlar" (Şura surəsi, 39) ayəsində açıqlamışdır.

Bir başqa ayədə Allah "Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir" (Saff surəsi, 4) şəklində buyurur. Allah yolunda vətən və millət üçün bir bina kimi birləşmiş olaraq verilən mübarizənin müvəffəqiyyətli olacağına inanan Atatürk də Qurtuluş savaşı boyunca və sonrakı dövrdə təkidlə milli birlik üzərində dayanmışdır. "Millət və biz yox, birlik halında millət var. Biz və millət fərqli şeylər deyilik"85 deyərək milli birliyi güclü olan xalqların həmişə qüvvətli olacağını ifadə etmişdir:



◉ Qadının əxlaqi vəziyyətinin cəmiyyət üçün nə dərəcə əhəmiyyətli olduğunu bilən Mustafa Kamal bu şüuru Türk millətinə də aşılamağa çalışmışdır.

> *“Bir insan özünü millətlə birlikdə hiss etdiyi zaman, nə qədər qüvvətli olar bilərsinizmi. Bunu tərif etmək müşküldür. Əgər mən izah etməkdə acizlik etsəm, məni üzrlü hesab edin.”86*

## Qadınlara dəyər verən millət

> *“Bizim fikrimizcə Türkiyə cümhuriyyəti anlamında qadın bütün Türk tarixində olduğu kimi, bu gün də ən möhtərəm mövqedə, hər şeyin üstündə yüksək mövqedə, hər şeyin üstündə yüksək və şərəfli varlıqdır.”87*

İctimai həyatın başlanğıcı olan ailə həyatının, cəmiyyətin psixoloji və ictimai quruluşunun formalaşmasında əhəmiyyəti çox böyükdür. İslam dininin ailəyə verdiyi dəyəri və bir millətin davamlılığı üçün din, ailə, əxlaq kimi anlayışlara sahib olmasının əhəmiyyətini bilən Atatürk də ailənin müqəddəsliyinə inanar, cəmiyyətin davamlılığı üçün ailəyə və mənəvi dəyərlərə sahib çıxılmasının əhəmiyyətini bilərdi.

Din, əxlaq və ailə müəssisələrinə sahib çıxan Atatürk ailənin təməli sayılmalı olan Türk qadını ilə cəmiyyət arasında körpü qurmaq istəmiş, qadınlara seçmə və seçilmə haqqı, kişi ilə bərabərlik və qadınların mədəni və siyasi haqlarına qovuşması kimi haqlar tanınmasını təmin etmişdir.

Atatürkün qadınlara verdiyi dəyər İslam əxlaqının əks olunmasıdır. Çünki İslam qadına böyük dəyər verən dindir. Quran endirilməzdən əvvəlki dövr qadına dəyər verilməyən, onu ikinci sinif görən bir zehniyyətin hakim olduğu dövr idi. Ancaq İslam dinində qadına bir çox haqq verilmiş və qadınlar üzərindəki təzyiqlər qaldırılmışdır. Quranda insanların bir-biri arasında heç bir üstünlüyün olmadığına, üstünlüyün ancaq Allah Qatında və təqva ilə olduğuna diqqət çəkilmişdir.

Atatürk qadının dəyər görmədiyi, ikinci plana atıldığı bir dövrdə, qadınların haqlarını qoruyarkən İslam dinindən ilham aldığına işarə edərək belə demişdir:

> *"Bizim dinimiz heç bir zaman qadınların kişilərdən geri qalmasını istəməmişdir. Allahın əmr etdiyi şey, müsəlman qadının və müsəlman kişinin bərabərcə elm və mədəniyyəti axtarmaq, harada tapsa oraya getmək və onu əldə etmək məcburiyyətidir... Türklərin ictimai həyatında qadınlar elmdə, mədəniyyətdə və başqa sahələrdə əsla kişilərdən geri qalmamışlar. Bəlkə daha da irəli getmişlər."88*

Yaxşı ailə tərbiyəsi alan Mustafa Kamal qadının əxlaqi vəziyyətinin cəmiyyət üçün çox əhəmiyyətli olduğunu bilərək, qadının əxlaqı pozulduğunda cəmiyyət quruluşunun da yara alacağına diqqət çəkmiş, "səfil olsa qadın, alçalar bəşər" sözünü xatırladaraq bu təhlükəyə qarşı xalqı xəbərdar etmişdir.

## Əxlaqi dəyərlərin qorunması üçün müstəqil bir cəmiyyət

Türklər tarix boyunca azadlıq və istiqlaliyyətə simvol olmuş bir millətdir. "Azadlıq və istiqlal mənim xarakterimdir" deyən Atatürk də Müsəlman Türk millətinin azadlığından əsla güzəştə getməməyi özünə şüar etmişdir.

İnsanın fitrəti də bunu tələb edir. Allah insanları Özünə qulluq edəcək şəkildə yaratmış, bunun xaricində hər kəsin azad olacağı nizam yaratmışdır. Bu səbəblə Atatürk, Türk millətinin müstəqilliyini təhdid edən ünsürlərə qarşı böyük mübarizə aparmışdır. Ölkəmizin xarici ölkələrin müstəmləkəsi, mandatı və ya birbaşa bir parçası halına gətirilməsinin danışıldığı bir dövrdə, böyük qərarlılıqla bunlara etiraz etmiş və Milli mübarizəni başlatmışdır. Mustafa Kamal Atatürk "Suverenlik qeyd-şərtsiz millətindir" deyərək bir millətin davamlılığı üçün mütləq o millətin azadlıq və istiqlalına sahib ola bilməsinin əhəmiyyətli olduğunu ifadə etmişdir.

## İrqi və sinfi ayrı-seçkiliyin edilmədiyi bir cəmiyyət

> *"İslam cəmiyyətində heç kimin bir sinfi ayıraraq (xüsusi davranaraq) qorumasını davam etdirməyə (qoruyub-güdməyə) haqqı yoxdur."89*

Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə insanlar bir-birilərini irq, soy, dil, din, cinsiyyət kimi xüsusiyyətlərlə qiymətləndirər, özlərinin meydana gətirdikləri süni anlayışlarla müxtəlif sinfi imtiyazları yaradarlar. Halbuki Allah, bütün insanları bərabər yaratmışdır. Heç kim irq, rəng və soy olaraq bir-birindən üstün ola bilməz.

Allah Qurani Kərimin Hucurat surəsində üstünlüyün ancaq təqva ilə olacağını belə bildirmişdir:

> *"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır." (Hucurat surəsi, 13)*

İmtiyazsız, sinifsiz xalqdan ibarət olan bir millət inşa etməyi düşünən Mustafa Kamal hər kəsin bərabər olduğuna inanır, həmişə ayrı-seçkiliyə qarşı çıxardı. Atatürkün milliyyət anlayışı da insan şəxsiyyətinə və azadlığına dəyər üzərinə qurulmuşdur. Bu anlayış Türk millətinin döyüşlərdə və verdiyi digər mübarizələrdəki müvəffəqiyyətində əhəmiyyətli rol oynamış, haqsızlıq və əsarətə qarşı millət olaraq başladılan hərəkətə səbəb olmuşdur.

Bir jurnalda Atatürkün bu üstün xüsusiyyəti ilə əlaqədar olaraq bu ifadələr yer alır:

> *"Atatürk millət anlayışını izah edərkən fiziki mənada bir irq anlayışından əsla danışmamışdı. Onun gözündə millət, bir qan, bir irq, bir bioloji fakt deyil, tarixi sosioloji və xüsusilə də mədəni bir reallıqdır."90*

V FƏSİL

# NƏTİCƏ: "TÜRK XALQI DAHA DİNDAR OLMALIDIR"

Atatürk səmimi dindar idi. Buna görə də, İslamın doğru başa düşülməsi və yaşanması üçün böyük səy göstərmişdi. Digər yandan Atatürkün "din vardır və lazımdır, dinsiz millətlərin davamına imkan yoxdur" sözü də Türk millətinin davamlılığında dinin nə cür əhəmiyyətli bir rola sahib olduğuna diqqət çəkir.



*"Türk xalqı daha dindar olmalıdır. Yəni bütün sadəliyi ilə dindar olmalıdır. Dinimə şəxsən həqiqətə inandığım kimi inanıram..."91 deyərək inancını vurğulayan Atatürk dinin bir millətin birlik-bərabərlik içində yaşamasında əhəmiyyətli bir faktor olduğuna da başqa sözlərində diqqət çəkmişdir.*

Həqiqətən də din, cəmiyyətləri bir-birinə bağlayar, fərdlərin bir-birlərinə birləşməsinə vəsilə olar. Tarixə baxdığımızda müharibə, aclıq, qıtlıq kimi çətin anlarda millətlərə dəstək olan faktorun milli və mənəvi birlik olduğunu görürük. Dini bağlarını qoparan, ya da zəiflədən cəmiyyətlər tarix səhnəsindən bir-bir silinərək yox olmuşlar.

Atatürkün, vəfat etməzdən 15 gün əvvəl dövrün baş nazir kanalı ilə bütün dünyaya açıqladığı son sözləri qurtuluşun və inkişafın sirlərini verməklə birlikdə Türk gəncliyinə mənəvi vəsiyyət xüsusiyyəti də daşıyır. Atamızın bu qiymətli sözləri belədir:

*"Bütün dünyanın müsəlmanları Allahın son peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq tətbiq etməlidirlər. Bütün müsəlmanlar Məhəmməd (s.ə.v.)-i nümunə götürməli və özü kimi hərəkət etməli; İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidirlər. Çünki ancaq bu şəkildə insanlar xilas ola bilər və inkişaf edə bilərlər."92*

VI FƏSİL

# ATATÜRKÜN ƏXLAQI HAQQINDA NƏ DEDİLƏR?



*"Sizdən əvvəlki bu böyük insanda, kəşf etdiyim bu bilinməyən insanda bacarıq və xarakter o qədər yaxşı işlənmişdi ki, sözlərində şübhə ola bilməzdi."93*

Fransız yazıçı, Claude Farere

*"Həyatın sonuna qədər xalqının etibarı ilə qurduğu dövlətin başında qalan müzəffər komandirin şəxsiyyəti tayı-bərabəri görülməz bir xarakter nümunəsidir."94*

İtaliyanın sabiq xarici işlər naziri, Comte Carlo Sforza

*"Bu qabaqcıl və avropalaşmış Türk, istər şəxsiyyəti, istərsə müvəffəqiyyətləri ilə heyranlıq və hörmət oyandırır. Orta yaşa gəlmiş bu öndər, məntiq və sarsılmaz əzm, özündən çox ölkəsi üçün bəslədiyi ehtiraslarla güclü şəxsiyyət və intizam insanıdır."95*

İngilis tarixçi, Arnold J. Toynbee

*"Türkiyə Cümhuriyyətinin dövlət başçısı Kamal Atatürk digər öndərlərdə görmədiyimiz bu qiymətli xüsusiyyətləri şəxsiyyətində toplamışdır; təvazökarlıq, yetərlilik, müvəffəqiyyət."96*

"The Truth" jurnalı, İngiltərə

*"Şübhəsiz ki, tayı-bərabəri olmayan bir insan idi. Təhlükə qarşısında qorxmaq və ya çətinliklər çıxdıqca qərarsızlıq nədir bilməzdi. Sədaqət istədi və layiq oldu. Qüdrət əsla başını döndürmədi; çünki yaradılışında kiçiklik yox idi."97*

İngiltərənin sabiq səfiri, Sir Perey Loraine

*"Mustafa Kamal bəy, boynuna məsuliyyət götürməkdən qorxmayan, doğuşdan lider idi."98*

Alman general, Liman Von Sanders

*"Dünya tarixində ancaq çox az insan xalqı üçün və soylu məqsəd üçün özünü həsr edə bilmə ruhunu təlqin edə bilmişdir."99*

Pakistan səfiri, İftihar Ali Han

*"Volter "insan ancaq xarakteri ilə böyük ola bilər" demişdi. Şəxslərin universallığı nəzərə alınanda, haqlı olduğunu düşünürəm… Amma bu ifadədən Qazi Mustafa Kamal lehinə bir ayrı-seçkilik edilə bilər. Tək xarakteri ilə deyil, eyni zamanda, qəlbi ilə də xalqın könlünü qazanıb bu cür böyük ola bilmişdir."100*

Neliya Pavlova

*"Atatürk yaxşı, müasir bir insandır. Türk xalqı onun şəxsiyyətində özünü görür, insanlığın bütün əlamətləri özünü onda göstərir."101*

Fransız jurnalist, Miladla Roger

*"Atatürk vəfat edəndə, dövrün Hindistan İslam Birliyinin başçısı olan və daha sonra Pakistan dövlətinin qurucusu olan Muhammed Ali Cinnah kədərini "Onun şəxsində tək İslam aləmi deyil, bütün dünya ən böyük insanlardan birini itirdi" ifadələri ilə dilə gətirmişdir."102*

Prof. Dr. İsmet Giritli

*"Və həqiqətən bu böyük insan, gecələri gündüzlərə qataraq düşünməyi, milli bünyənin dözümünü bildirmiş, hər şeyin zamanını hesablamış və zamanı iradəsinə ram edə bilmişdi."103*

Mazhar Müfit Kansu

*"Atatürk təkcə bu əsrin ən böyük adamlarından biri deyil. Biz Pakistanda onu gəlmiş-keçmiş bütün çağların ən böyük adamlarından biri olaraq görürük. O tək sizin millətinizin sevimli lideri deyildi. Dünyadakı bütün müsəlmanlar gözlərini sevgi və heyranlıq hissi ilə ona çevirmişdilər. O müsəlman dünyasından yenidən siyasi oyanış istiqamətinə irəli doğru cəsur bir addım atan bir ovuc insandan biri idi."104*

Pakistanın dövlət başçısı, Eyüp Han

*"Atatürk bu əsrin böyük insanlarından birinin tarixi müvəffəqiyyətlərini, Türk xalqına ilham verən liderliyini, müasir dünyanın uzaqgörən anlayışını və bir hərbi lider olaraq qüdrət və yüksək cəsarətini xatırladır... Tənəzzül halında olan bir imperatorluqdan azad Türkiyənin doğulması, yeni Türkiyənin azadlıq və müstəqilliyini şərəfli bir şəkildə elan etməsi və o zamandan bəri qoruması, Atatürkün Türk xalqının işidir. Şübhəsiz ki, Türkiyədə girdiyi dərin və geniş inqilablar qədər bir kütlənin özünə olan etibarını daha müvəffəqiyyət ilə göstərən bir nümunə yoxdur."105*

ABŞ-ın sabiq prezidenti, John F. Kennedy

*"Mənim kədərim, bu adamla tanış olmaq xüsusundakı şiddətli arzumun reallaşmasına artıq imkanın qalmamasıdır. Sovet Rusiyasının xarici işlər naziri Litvinov ilə görüşərkən, ondan bütün Avropanın ən qiymətli və ən çox diqqətə dəyər dövlət adamının kim olduğunu soruşdum. Mənə Avropanın ən qiymətli dövlət adamının Türkiyə Cümhuriyyətinin prezidenti Mustafa Kamal olduğunu söylədi."106*

ABŞ-ın sabiq prezidenti, Franklin Roosevelt

> *“Hərbiçi-dövlət adamı, çağımızın ən böyük liderlərindən biri idi. Türkiyənin dünyanın ən inkişaf etmiş ölkələri arasında layiq olduğu yeri almasını təmin etmişdir. Həmçinin o, türklərə bir millətin böyüklüyünün təməl daşını təşkil edən, özünə güvənmə və əsaslanma duyğusunu vermişdir.”107*

General MacArthur

> *“İnsanı təslim edən, böyük öndərlik gücü vardır. O, zirəkdir, hazırcavabdır, diqqəti çəkəcək qədər ağıllıdır.”108*

Amerikalı jurnalist, Gladys Baker

> *“O, fərdi qazanc və şöhrət arxasında qaçan sadə bir lider deyil, gələcək nəsillər üçün möhkəm təməllər atmaq üçün çalışan bir qəhrəman idi.”109*

Prof. Walter L. Wriht, Almaniya

> *“Atatürk Türkiyəni tək bir düşmən olmadan tərk etdi. Bu, dövrümüzdə heç bir dövlət başçısının bacara bilmədiyidir.”110*

“Völkischer Beobacter” qəzeti, Almaniya

> *“Almaniya Atatürkün əsərinə və mübarizəsinə pərəstiş edir. Onda tarixi əsəri, azadlığı sevən bütün millətlər üçün bir simvol olaraq qalacaq qüdrətli bir şəxsiyyət görür.”111*

Berlin-Alman agentliyi

*"İztirab çəkən dünyada sülh və rahatlığı yenidən qurmaq və insanlığın tək maddi deyil, mənəvi inkişafını təmin etmək istəyənlər Atatürkün iman verici və istiqamət verən xarakterindən nümunə və güc alsınlar."112*

Alman tarixçi, prof. Herbert Melzig

*"Onun tarixi böyüklüyü əsəri olan yeni Türkiyəyə baxılaraq bu gündən ölçülə bilər. Polad kimi əzm və səyi, uzağı görən ağıl və hikmətlə birləşmiş olan bu həqiqi xalq öndəri və dövlət adamı; Anadolu dağlarının ən uzaq və kimsəsiz kəndlərə belə başqa bir ruh aşılamışdır."113*

"Illustrierte Zeitung" jurnalı, Almaniya

*"O, öz milləti və bəşəriyyət aləmi üçün bəslədiyi sevgi ilə, bir dahinin nələr yaratdığına dair dünyaya çox həyəcanlı bir səhnə seyr etdirir."114*

Alman tarixçi, prof. Herbert Melzig

*"İnsanlığın bütün əlamətləri onda özünü göstərir."115*

Fransız jurnalist, Miladla Roger

*"Atatürkün yurdu qurtardığını millətlərin ən vəfalısı olan türklər əsla unutmayacaqlar."116*

Fransız jurnalist, Miladla Roger

*"Atatürkün dahiliyi tarixdə Türk millətinin daşıdığı ruhun fəzilətinə ən yüksək nümunələrindən birini təşkil edəcək."117*

Yugoslaviyanın səfiri, Branko Aczmovic

*"Ağıllı və sülhsevər üsullarla reallaşdırdığı əsəri xalqların tarixində izini qoyacaq."118*

Fransanın sabiq prezidenti, Albert Lebrun

*"Mövcud rütbələrin hamısını ləğv etdiyi bir ölkədə bu şəxs bütün rütbələri qazanmışdır. O məmləkətdə ola biləcək ən şərəfli ad ona verilmişdir."119*

Fransız jurnalist, Mercel Sauvage

*"Bu, insanlığa sınanmış bir fəlsəfə nümunəsi olaraq təqdim edilə bilər. Atatürk əsrlərlə davam edə biləcək işləri on ildə tamamladı."120*

Fransız yazıçı, Gerrad Tongas

*"İslam aləmi onsuz yolunu tapa bilmək üçün əlli il daha gözləyəcəkdi" deyilə bilər."121*

Berthe Georges Gaulis, Fransa

*"O, uca bir dağa bənzəyir. Ətəyində yaşayanlar bu ucalığı fərq edə bilməzlər. Bu dağın əzəmətini qavraya bilmək üçün, ona çox uzaqlardan baxmaq lazımdır."122*

Fransız ədəbiyyatçı, Claude Farrer

> *“Kamal Atatürkün xarakterinin bir cəbhəsini göstərmək üçün bir nöqtəni xatırlatmaq istəyirəm. Bizə döyüşlərindən birini izah edirdi. Birdən-birə dayandı: “Görürsünüz” dedi. “Bir çox zəfər qazandım. Lakin bunların ən böyüyündən sonra belə hər axşam, döyüş meydanında ölən bütün əsgərləri düşünərək içimdə dərin kədər duyuram.” Cəsarət və zəkasından başqa ürəyi bu qədər uca olan belə liderin, yurdu üçün möcüzələrə vəsilə olmasına təəccüblənilə bilinərmi?...”123*

Corc Bennes, “Vu” qəzeti, Fransa



> *“Dövrümüzdə heç bir ad Atatürkün adı qədər böyük hörmət yaratmamışdır.”124*

Observer, İngiltərə

> *“İngiltərə əvvəl, cəsur və zadəgan bir düşmən, sonra da sadiq bir dost olaraq tanıdığı böyük adamı salamlayır.”125*

“Sunday Times” qəzeti, İngiltərə

*"Atatürk köhnəlmiş elmlərlə boş yerə başını yormadığı üçün daha təzə və cəsur düşünən bir öndərdir. Özü üçün bugünkü Avropanın ən güclü dövlət adamıdır deyə biləcəyimiz Atatürk, heç şübhəsiz, dövlət adamlarının ən cəsur və orijinalıdır."126*

İngilis yazıçı, Herbert Sideabotham

*"Atatürk xəyali insan deyil. İstədiyini bilər, bildiyini edər, edə bilməyəcəyi bir şeyi də istəməz."127*

Heykəltəraş Krippel

*"Atatürk, şəxsiyyət və qabiliyyətin nəhəng simvolu idi. O, iyirminci əsrin ən görkəmli hadisəsini reallaşdıran şəxs idi."128*

"National Tidence" qəzeti, Danimarka

*"Üstün iradəsi, tükənməz cəsarəti və bənzərsiz hissiyatı ilə rəqiblərini yola gətirdi. Fəzilət və ciddiliyi, üç ildə məmləkətinə tək hərbi deyil, eyni zamanda tam və doyurucu siyasi zəfər qazandırdı."129*

Yazıçı, F. Perrone De San Martino

*"Böyük şəxslər nəsillərinin başındadırlar. Türk millətinin başındakı böyük və dahi Atatürk siyasət və döyüş meydanında qorxmayan böyük və vətənpərvər bir insan idi."130*

Livanın baş naziri, Raşit Kerama

*"Sözün tam mənası ilə qurucu olan Atatürk dünya xəritəsində məmləkətinə yeni sərhəd çəkmişdir..."131*

"Loryan" qəzeti, Livan

*"Atatürk dünyanın çox nadir yetişdirdiyi dahilərdəndir. O, bütün tarixin seyrini dəyişdirmişdir."132*

"Ennehar" qəzeti, Livan

*"Türkiyəni bir arı pətəyinə və bütün türkləri də bal axtarışına çıxmış çalışqan arılara bənzədirəm. Necə arılar bəylərinin ətrafında toplanıb çalışırsalar, bütün Türk milləti bu gün böyük, dahi Mustafa Kamal ətrafında toplanıblar."133*

Prof. M. Zaajti Franes, Macarıstan

*"Onun yaradıcı ruhunun və qızğın vətənpərvərliyinin hərəkətə keçmədiyi heç bir sahə yoxdur..."134*

Gazeta Polska, Polşa

*"Atatürk, tarixdə təşkilatçı bir dahi, bir millətin möcüzələr yaradan rəhbəri və məmləkətinin qurtarıcısı olaraq qalacaq."135*

"Independance Romaine" qəzeti, Rumıniya

*"Şöhrəti bütün dünyaya yayılmış təcrübəli başçının rəhbərliyi hər kəsə sevgi və hörmət bəsləyən böyük Türk millətinin milli müstəqilliyini davamlı müvəffəqiyyət ilə qüvvətləndirmiş və yeni milli quruluşunu yaratmışdır."136*

Sabiq Sovet baş naziri, Kalinin

> *"Vətənini parçalanmaqdan qurtararaq dövlət gəmisini etibarlı bir limana apardıqdan sonra millətindən taxt istəmədi. O, sözünün bütün mənası ilə bir insan, bənzərsiz dahi, qəhrəman bir əsgər və siyasət adamı idi."137*

Elifba qəzeti, Suriya



> *"Türkiyə, dost və düşmənlərinin heyran olduğu dahi şəxsə malik olmaq bəxtiyarlığını əldə etmişdir."138*

Katimerini, Yunanıstan

VII FƏSİL

# HƏQİQİ ATATÜRKÇÜ GƏNC HANSI ƏXLAQA SAHİB OLMALIDIR?

Atatürkün ən böyük hədəfi çox böyük əmək sərf edilərək qurulan böyük Türkiyə Cümhuriyyətinin güclü və inkişaf etmiş demokratik ölkələr birliyinə girməsi və bu inteqrasiya prosesinin çox sürətli və müvəffəqiyyətli olması idi. Türk millətinin bu prosesi sürətləndirməsinin birinci şərti isə Qərbin mədəniyyətini alarkən, milli birlik və bərabərliyini hər şeydən üstün tutması, milliyyətçi xarakterini əsas götürməsi, İslamı müdafiə edən müasir quruluşu heç gözləmədən yaratması idi.

Məhz bu səbəblə, Atatürk Cümhuriyyəti əmanət etdiyi Türk gəncinin, milli birlik və bərabərliyini hər şeydən üstün tutan, vətənpərvər, cəsur, ölkəsi üçün canını sevərək verən, İslamı mənimsəmiş, gözəl əxlaqi xüsusiyyətləri həyatının hər mərhələsinə yerləşdirmiş bir gənclik olmasını istəmiş, bunun üçün qarşısına çıxan hər maneəni şəxsən ortadan qaldırmışdır. Aşağıda sıralanan bir neçə maddə, Atatürkün hədəflədiyi milliyyətçi Türk gənci modelini qısaca təsvir edir.

1. Dövlətin bölünməzliyini qərarlılıqla müdafiə edir.

2. Hüquqa və qanunlara hörmət edir.

3. Dinə və mənəvi dəyərlərə könüldən bağlıdır və hörmət duyar.

4. İnsana dəyər verər, əlaqələrində hörmət və sevgiyə əsaslanar.

5. Ayrı-seçkiliyə qarşıdır. Hər kəsin bərabər olduğuna, həmrəyliyin əhəmiyyətinə, milli birlik və bərabərliyə inanar.

6. Fikirləri və idealları müsbət elmə və ağla əsaslanar.

7. Hər kəsin fikrinə dəyər verər, müşavirə edər.

8. Türk milləti üçün hər nə bahasına olursa olsun, xidməti qanun etmişdir və bu yolda heç bir fədakarlıq etməkdən çəkinməz.

9. Dinamikdir, mövhumatçılığa qarşıdır. Daima çağın yeniliklərindən və inkişaflarından yanadır. Əsaslandırdığı hər fikri mütləq hərəkətə keçirər.

10. Diqqətlidir, xaricdən və ya daxildən gələ biləcək təhlükələrə qarşı ayıqdır, ağıllı tədbirlər alar.

11. Ənənə və adətlərinə güclü hisslərlə bağlıdır.

12. Ailənin müqəddəsliyinə inanar.

13. Türkiyə Cümhuriyyətinin müasir mədəniyyət səviyyəsinə çata bilməsi üçün çalışar. Əzmli və qərarlıdır. Mənfi hadisələrdən sarsılmaz.

14. Təvazökar, səbirli və həmişə sülhpərvərdir.

15. Ədalətdən güzəştə getməz.

16. Estetik dəyərlərə və sənətə meyllidir.

17. Əxlaq gözəlliyinə və təmizliyə dəyər verər.

18. Hər kəsə sevgi və yaxşı niyyətlə yaxınlaşar, köməksevərdir.

19. Məsuliyyətlidir.

20. Ziyalıdır və elmdən yanadır.

21. Uzaqgörəndir.

22. Tolerant və bağışlayıcıdır; bağışlamağı və sədaqəti əsas götürər.

23. Sülhsevər və barışcıldır.

24. Sözlərinə və əmanətlərinə olan həssaslığı güclüdür.

25. Şərəfli və təmkinlidir.

26. Başına gələn çətinliklərə görə heç bir zaman ümidsizliyə qapılmaz.

27. Dünyəvi ehtiraslardan təmizlənmişdir, heç bir zaman gələcək qayğısı duymaz.

28. Cəsurdur, heç bir çətinlik onu hədəflərindən yayındırmaz. Düşmənin sayı, gücü və böyüklüyü onun qərarlılığına təsir etməz.

## HÖRMƏTLİ ADNAN OKTARIN "AZƏRBAYCAN AZADLIQ" QƏZETİ İLƏ MÜSAHİBƏSİ, 14 SENTYABR 2008-Cİ İL

ADNAN OKTAR: Atatürk dindar, ağılı başında, həqiqi Türk milliyyətçisi, aslan kimi Osmanlı zabitidir. Və igid Türk dəliqanlısıdır. Daha nə etsin, Almalılı təfsiri etdirmişdir. Ən əhəmiyyətli hədis kitabı olduğu üçün Buxarini tərcümə etdirmişdir. Almalılı təfsiri ən mükəmməl təfsir kimi bilinir. Diyanət İşləri Başçılığını qurmuşdur. Dini əslinə qaytarmışdır. Yəni səmimi yaşanmasını təşviq etmişdir. Demək olar ki, hər axşam Quran oxuyub, dinləyən insandır. Onun ətrafında məşhur hafizlər vardı, onlara Quran oxudub onu zövqlə dinləyən insan idi. Və Quran üzərində ciddi araşdırmaları olan mədəni insandır. Türkiyə işğal edilmişdi, bu işğalı tamamilə ortadan qaldırır. Bu, mükəmməl fəaliyyətdir. Türkiyədə düşmən deyə bir şey buraxmır. Hamısını püskürdür və geri göndərdir. Və milli dövləti qurur. Çox hörmətli dövlət meydana gətirir. Bütün ölkələrin bəyəndiyi bir sistem meydana gətirir... Bir də böyük məhəbbət ilə Peyğəmbərimizi (s.ə.v.) tərifləyir. Üstəlik, Allaha qarşı sevgisini coşğu ilə dilə gətirir. Bu çox əhəmiyyətlidir. Coşğu ilə Allaha olan sevgisini, bağlılığını ifadə edir. Peyğəmbərə (s.ə.v.) duyduğu sevgisi də çox güclüdür. Ona tam uyulmalı olduğunu söyləyir. "La ilahə illəllah, Muhammədən Rəsulullah" deyən bir insanın başqa heç bir şey etməsə belə müsəlman olduğu bilinər. Atatürk "La ilahə illəllah, Muhammədən Rəsulullah" dediyi kimi İslama çox böyük xidmət etmiş bir insandır. Tam İslam mücahididir. Türk mücahididir. Edilə biləcək ən mükəmməli etməyə cəhd göstərmiş bir insandır.

## HÖRMƏTLİ ADNAN OKTARIN DESTAN TV MÜSAHİBƏSİ, 8 MART 2009-CU İL

ADNAN OKTAR: Bəzi şəxslər Atatürkü öz ağıllarına görə izah etməyə çalışırlar. Amma biz doğrusunu izah edək. "Unudulmamalıdır ki, Türk aləminin ən böyük düşməni kommunizmdir" deyir. Baxın, PKK-nı da hələ o zamandan görmüşdür. İndi Türk aləminin ən böyük düşməni PKK hərəkatı, kommunizmdir. "Dərhal hər görüldüyü yerdə əzilməlidir" deyir. Bu edilmədiyi üçün PKK bu gün boy göstərdi. Atatürkün bu sözünə əməl edilsəydi, bu olmazdı. Baxın nə deyir. "Ey millət, Allah birdir. Şanı böyükdür. Allahın salamı və xeyiri üzərinizə olsun. Qoyduğu əsas qanunlar Quran-i Azümüşandakı ayələrdir. İnsanlara bolluq ruhunu vermiş dinimiz son və mükəmməl dindir. Çünki dinimiz ağla, məntiqə, həqiqətə uyğun olmasaydı, bununla digər İlahi və təbii qanunlar arasında ayrılıqlar olmalı idi. Bütün ilahi qanunları edən Haqdır" deyir. Məsələn, "Millətimiz din kimi güclü bir fəzilətə malikdir. Bu fəziləti heç bir qüvvət millətimizin ürək və vicdanından çıxarda bilməmişdir və bilməz də", "Din əhəmiyyətli müəssisədir" deyir. "Dinsiz millətlərin davam etməsinə imkan yoxdur" deyir. "Bütün dünyanın müsəlmanları Allahın son Peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməlidilər". Diqqət yetirin, baxın, nə deyir, "hz Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu bütün dünyanın müsəlmanları izləməlidirlər" deyir. "Və verdiyi təlimatları, -Peyğəmbərimizin (s.ə.v.) verdiyi təlimatları tam tətbiq etməlidirlər." Atatürk bunu ölümündən qısa bir müddət əvvəl söyləmişdir.

## HÖRMƏTLİ ADNAN OKTARIN EKİN TV MÜSAHİBƏSİ, 2 FEVRAL 2009-CU İL

ADNAN OKTAR: Atatürk həyat dolu insan idi. Hafizə Quran oxutduğunu, gecə-gündüz hafizlərə Quran oxutduğunu niyə o filmə daxil etməyiblər? Məsələn, niyə bu sözünü o filmdə görə bilmirik: "Bütün dünyanın insanları Allahın son peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməli və verdiyi təlimatları tam olaraq tətbiq etməlidirlər. Bütün müsəlmanlar hz. Məhəmmədi (s.ə.v.) nümunə götürməli və onun kimi hərəkət etməlidirlər. İslamiyyətin hökmlərini olduğu kimi yerinə yetirməlidirlər, çünki ancaq insanlar bu şəkildə xilas ola bilərlər və inkişaf edə bilərlər." Biz bunu "Mustafa" filmində görməli idik. "O, Allahın birinci və ən böyük quludur. Onun izində bu gün milyonlarla insan gedir." Peyğəmbərimiz haqqında (s.ə.v.) söyləyir. "Mənim, sənin adın silinər, lakin sonuna qədər o ölümsüzdür." Bunu Peyğəmbərimiz (s.ə.v.) üçün söyləyir. Yəni bunları söyləmək var ikən, tək idi, komada idi, otururdu şəklində yazılar, tamam, yaxşı niyyətlə edildiyi təəssüratı verir, amma çox əskik olub. Məsələn, Səadettin Kaynak belə söyləyir. "Atatürk məndən mövludu şərifin hər misrasını ayrı bir mövqedə olmaq üzrə oxumağımı istədi." Səadettin Kaynak "mövludu şərifi", bax deyir ki, "hər misrasını ayrı bir mövqedə olmaq üzrə oxumağımı istədi. Sonra da Qurani Kərimin müxtəlif surələrindən hissələr, ayələr oxutdu." "Hətta dostu Nuri Conkerdən də Quran oxumasını istədi. O da bildiyi Tövbə surəsini oxudu. Atatürk bütün bunlardan çox məmnun olmuşdu. Atatürk dini musiqini, Qurani Kərim dinləməyi çox sevər, lakin xüsusilə, şüurlu olaraq Türkcə təfsir edilməsini istəyərdi. Quranın açıqlanmasını istəyərdi" deyir. "Dini musiqimiz mevlüt, ilahi, azan, təkbir kimi formalarda böyük bir zənginlik ifadə edir" deyir. "Ramazan ayında Quran və mevlud oxudar və bundan çox böyük zövq alardı. Ramazanda və

qəndil gecələrində yalnız məni hüzuruna çağırar, Qurani Kərimdən bəzi surələr oxudardılar. Mən oxuyarkən gözləri bir nöqtəyə dirəyər, dərin huşu içində dinləyərdi." Hansı birini söyləyim, yəni yüzlərlə belə mövzu var.

## HÖRMƏTLİ ADNAN OKTARIN KAÇKAR TV MÜSAHİBƏSİ, 8 YANVAR 2009-CU İL

ADNAN OKTAR: Atatürkün nə cür dindar, nə cür aslan, aslanların aslanı, necə Müsəlman övladı olduğunu izah edim qardaşımız anlasın. Atatürk qurtarıcıdır, qurtarıcı xüsusiyyəti vardır, Atatürkün xilas olmağa ehtiyacı olmaz. Böyük, şanlı Atatürk "Ey millət, Allah birdir şanı böyükdür" deyir. "Allahın salamı və xeyiri üzərinizə olsun." Müsəlmanlara dua edir, Müsəlman övladı olduğu üçün dua edir. "Qoyduğu əsas qanunlar Quranı Əzm-üş Şandakı ayələrdir, insanlara bolluq ruhunu vermiş dinimiz son dindir, mükəmməl dindir, çünki dinimiz ağla, məntiqə, həqiqətə uyğun olmasaydı, bununla digər İlahi və təbii qanunlar arasında ziddiyyətlər olmalı idi. Bütün ilahi qanunları edən Allahdır." Bax, aslanların aslanının ağzından nur axır, görürsünüzmü? Baxın, diqqət yetirin, o qardaşıma və bütün qardaşlarıma Atatürkün ifadəsini izah edirəm, "bütün dünyanın müsəlmanları Allahın son Peyğəmbəri hz. Məhəmmədin (s.ə.v.) göstərdiyi yolu izləməlidirlər." Peyğəmbərin (s.ə.v.) yolundan gedin deyir "və verdiyi təlimatların hamısını tətbiq etməlidirlər," Peyğəmbər (s.ə.v.) nə dedisə hamısını edin deyir, "bütün müsəlmanlar hz. Məhəmmədi (s.ə.v.) nümunə götürməli və onun kimi hərəkət etməlidirlər," eynilə Peyğəmbər (s.ə.v.) kimi hərəkət edin deyir, "İslamiyyətin hökmləri olduğu kimi yerinə yetirilməlidir." Baxın, "İslamiyyətin hökmləri olduğu kimi yerinə yetirilməlidir, çünki ancaq bu şəkildə insanlar xilas ola bilər və inkişaf edə bilərlər." Bunu Atatürk söyləyir. Bunu zamanımızda hansı müsəlman söyləyə bilir? Bunu söyləyən müsəlman çox azdır. Yəni bu qədər yığcam, İslamı bu qədər gözəl təsvir edən, Peyğəmbər (s.ə.v.) sevgisini bu qədər gözəl izah edən; bu yalnız bir hissəsidir. Almalılı təfsiri; ən mükəmməl alimi seçmişdir, Almalılı Həmdi Yazar onun təfsirini etdirmişdir və müsəlmanlara, Türk millətinə təqdim etmişdir. Buxari-i Şərif ən etibarlı, mötəbər hədis kitabıdır, onu da təfsir etmişdir, onu da müsəlmanlara təqdim etmişdir. Arxasından Diyanət İşləri Nazirliyini qurmuşdur, dövlətin ən böyük dövlət təşkilatıdır. İzah etməklə bitməz, Atatürk az qala hər gün Quran oxudan, hər gün Quran dinləyən bir insandır. Quranı dinləməkdən dərin zövq alan, Quran söhbətləri edən bir insandır. Amma bunları izah etməyə çalışsam, inanın, səhərə qədər bitməz, maşaAllah.

## HÖRMƏTLİ ADNAN OKTARIN MAVİ QARADƏNİZ TV-DƏKİ MÜSAHİBƏSİ, 24 MART 2009-CU İL

ADNAN OKTAR: Öz ağılları ilə Atatürkü yanlış tanıdacaqdılar, amma biz çıxdıq, Atatürkü izah etdik. Hal-hazırda bütün millətimiz Atatürkə qarşı böyük sevgi duyur... Məsələn, Atatürkün anti kommunist, anti mason olması, mason lojalarını bağlaması, kommunist təşkilatlanmağa qarşı olması, Allaha, Peyğəmbərə (s.ə.v.) sanki aşiq olması, böyük sevgi duyması, məsələn, İmam Hatiplərin açılmasında, Diyanət İşləri Nazirliyinin qurulmasında, Almalılı təfsirinin hazırlanmasında, Buxarinin tərcüməsində, Peyğəmbərimizin (s.ə.v.) həyatının hazırlanmasında,

yəni çox sahədə, çox böyük faydaları oldu və əməyi keçdi. Hər gecə Quran oxuyan insan idi. Onun oxuduğu Quran Mavzoleydə saxlanılır, kiçik bir Quranı var idi. Və çox sayda Quran nəşr etdirib Anadoluya da paylamışdır. Və həmişə yanında daşımışdır, yəni cibində Quran daşıyan insan idi. Hər getdiyi yerdə oxuyan, hafizlər çağırdıb Quran oxudan bir insan idi. Üstəlik, sevdiklərinin yanına da hafizlər göndərtdirib onlara da Quran oxutdurur. Məsələn, sevdiyi hafizləri anasının yanına, dostlarına göndərir, Quran oxusun dinləyin deyir. Möhtərəm insan idi. Öz ağıllarınca bunu gizləməyə çalışdılar, tam fərqli Atatürk portreti çəkməyə çalışdılar. Bu yalanlarını da ortaya çıxartdıq. Bu oyunu da edə bilmədilər.

ƏLAVƏ BÖLMƏ

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər




Çarlz Darvin

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> *"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər



Aleksandr Oparinin həyatın mənşəyinə təkamülçü izah gətirmək üçün icra etdiyi səylər böyük bir uğursuzluqla nəticələndi. Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün böyük bir dilemmadır.

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> *"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*



Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> *“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.



Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, dörd ayrı molekulun fərqli düzülməsindən yaranan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alar. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya ortaya çıxacağı hesablanmışdır. Əlbəttə bu cür fövqəladə bir məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız edir.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> *"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri



Təbii seleksiyaya görə, güclü olan və yaşadığı mühitə uyğunlaşa bilən canlılar həyatda qalar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir sübut belə yoxdur.

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə

ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> *"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv

edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur



Sekvoya yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.



Günəş balığı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 54-37 milyon il

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:



Tozağacı yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

> *"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:



Dəniz şabalıdı Dövr: Paleozoy erası, Daş kömür dövrü Yaş: 295 milyon il

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri



Dəniz ulduzu Dövr: Paleozoy erası, Ordovik dövrü Yaş: 490-443 milyon il

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:



> *“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> *“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*



Çayır ağcaqanadı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 48-37 milyon il

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı



Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens



Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst

Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)



Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> *“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*




Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

*“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.



Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxarıdakına bənzər bir qaba canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları, qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər müddət gözlənilsin bu qabdan canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.




100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?



Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək

üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> *"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yeni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də

elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)*

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنٖى اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ
وَاَشْهَدَهُمْ عَلٰٓى اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى
شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلٖينَ

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)*

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)*

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)*

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

*Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

*...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)*

# ƏDƏBİYYAT


1. “Muhit Mecmuası”, say 32, iyun 1931, səh. 87-88

2. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 180-181

3. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 175

4. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 184

5. Tirmizi, Rəd 11, (1162); Ebu Davud, Sünnə 16, 4682

6. “Atatürk diyor ki”, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 68

7. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 149-150

8. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

9. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 182

10. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk,” Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 135

11. Avni Altıner, “Her yönüyle Atatürk”, 2-ci nəşr, Bakış kitabxanası, İstanbul, 1974, səh. 376

12. Rönesans jurnalı, fevral 1991, səh. 20

13. Rönesans jurnalı, fevral 1991, səh. 20

14. Rönesans jurnalı, fevral 1991, səh. 20

15. Rönesans jurnalı, fevral 1991, səh. 20

16. Rönesans jurnalı, fevral 1991, səh. 20

17. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 175

18. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 261

19. Seyfettin Turhan, “Atatürkde konular ansiklopedisi”, Yapı Kredi nəşrləri, İstanbul, fevral 1995, səh. 191

20. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 168

21. http://www.kultur.gov.tr/portal/tarih_tr.asp?belgeno=13533, “Atatürkün söylev və demeçleri”, 2-ci cild, səh. 66-67

22. Seyfettin Turhan, “Atatürkde konular ansiklopedisi”, Yapı Kredi nəşrləri, İstanbul, fevral 1995, səh. 121

23. Prof. dr. İbrahim Agah Çubukçu, “Atatürk və laiklik”, Baş qərargah başçılığı, səh. 337-346, http://www.merih.com/ataturk/wiaclaiklik.htm

24. Sadi Borak, “Atatürk ve din”, 2-ci nəşr, Anıl nəşriyyat, İstanbul, 1996, səh. 21

25. Sadi Borak, “Atatürk ve din”, 2-ci nəşr, Anıl nəşriyyat, İstanbul, 1996, səh. 33

26. Sadi Borak, “Atatürk ve din”, 2.-ci nəşr, Anıl nəşriyyat, İstanbul, 1996, səh. 87

27. Prof. dr. Utkan Kocatürk, “Atatürkün fikir ve düşünceleri”, səh. 208, http://www.diyanet.gov.tr/duyurular/balikesir2.htm

28. http://musabe2.virtualave.net/ataturk.htm

29. Hanif Fauk, “Atatürk Urduca yayınlardan”, Ankara universiteti mətbəə, Ankara, 1979, səh. 102

30. Prof. dr. Aişə Afet İnan, “Mustafa Kamal Atatürkten yazdıklarım”, Ankara, 1969, səh. 85

31. Prof. dr. Aişə Afet İnan, “Mustafa Kamal Atatürkten yazdıklarım”, Ankara, 1969, səh. 98

32. http://www.geocities.com/islampencereleri/ataturk.htm, http://www.liderler.net/lideratatürk.php

33. Seyfettin Turhan, “Atatürkde konular ansiklopedisi”, Yapı Kredi nəşrləri, İstanbul, fevral 1995, səh. 190

34. Atatürk diyor ki, “Atatürkün direktif mahiyyətindəki düşünceleri və kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 63

35. http://www.haberbilgi.com/kitaplar/Ahmet_Taner_Kislali/siyasal_sistemler/ss1_22f_kemalizm.html

36. Sadi Borak, “Atatürk ve din”, 2-ci nəşr, Anıl nəşriyyat, İstanbul, 1996, səh. 87

37. Avni Altıner, “Her yönüyle Atatürk”, 2-ci nəşr, Bakış kitabxanası, İstanbul, 1974, səh. 627

38. http://www.geocities.com/strateji_taktik/makaleler/arsiv/tct6-a56.htm

39. Avni Altınetr, “Her yönüyle Atatürk”, 2-ci nəşr, Bakış kitabxanası, İstanbul, 1974, səh. 268

40. 1922 prof. dr. Afet İnanın nümayiş etdirdiyi sənəddən səh. 37

41. Mustafa Baydar, “Atatürkle konuşmalar”, Yeditepe mətbəə, İstanbul, 1955, səh. 102

42. http://www.kho.edu.tr/atasayfa/buynutuk/bolum13/index29.htm

43. http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

44. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, Tarixsiz, səh. 149

45. http://www.meb.gov.tr/belirligunler/10kasim/anasayfa.htm

46. http://ulusdergisi.kolayweb.com/756212731881.html

47. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki süşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 120

48. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, s. Nəşriyyat, İstanbul, 1954, səh. 118

49. Mustafa Baydar, “Atatürkle konuşmalar”, Yeditepe mətbəə, İstanbul, 1955, səh. 103-104

50. “Atatürkün söylev ve demeçleri I-III”, III cild, Atatürk kültür, dil və tarih yüksek kurumu Atatürk araşdırma mərkəzi, Ankara, 1989, səh. 120

51. http://www.kultur.gov.tr/portal/tarih_tr.asp?belgeno=13798

52. http://www.netbul.com/superstar/ozeldosyalar/sicakhaber/ataturk/ataturkdiyorki.asp

53. http://www.kultur.gov.tr/portal/tarih_tr.asp?belgeno=13539

54. http://ulusdergisi.kolayweb.com/956444946013.html

55. http://www.kultur.gov.tr/portal/tarih_tr.asp?belgeno=13533

56. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 264

57. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 119

58. http://zonguldak.meb.gov.tr/ataturk/sayfalar/genclik.htm

59. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 138

60. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 53

61. Celal Bayar, İsmet Bozdağ, səh. 108

62. Prof. dr. Aişə Afet İnan, “Mustafa Kamal Atatürkten yazdıklarım”, Ankara, 1969, səh. 114

63. Prof. dr. Süleyman Aslan xüsusi nəşr, Atatürk araştırma merkezi jurnalı, cild 12, ədəd 36, noyabr 1996, səh. 936

64. Prof. dr. Hamza Eroğlu, “Atatürkçülük”, Olgaç mətbəəsi, Ankara, 1981, səh. 68

65. http://www.mkataturk.gen.tr/ozel/ozel5.html, Celal Bayar, Atatürkten hatıralar, Sel nəşrləri, 1955, səh. 109

66. Prof. dr. Süleyman Aslan xüsusi nəşr, Atatürk araştırma merkezi jurnalı, cild 12, ədəd 36, noyabr 1996, səh. 948

67. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 208

68. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 112-113

69. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 70

70. Seyfettin Turhan, “Atatürkte konular ansiklopedisi”, Yapı Kredi nəşrləri, İstanbul, fevral 1995, səh. 184

71. http://www.ataturk.net/ata/iktisatk.html

72. http://www.meb.gov.tr/belirligunler/10kasim/ilkeleri/yurtta_baris.htm

73. http://www.kho.edu.tr/atasayfa/biyografi/kronoloji/bolum21/

74. Prof. dr. Hamza Eroğlu, “Atatürkçülük”, Olgaç mətbəəsi, Ankara, 1981, səh. 180

75. “Atatürkün söylev ve demeçleri I-III”, III cild, Atatürk kültür, dil və tarih yüksək təşkilatı, Atatürk araşdırma mərkəzi, Ankara, 1989, səh. 20-21

76. Emre Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 88

77. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 77

78. “Atatürk diyor ki, Atatürkün direktif mahiyetindeki düşünceleri ve kısaca hayatı”, 2-ci nəşr, Varlık nəşriyyat, İstanbul, 1954, səh. 120

79. http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

80. Prof. dr. A. Afet İnan, “Medeni bilgiler ve Mustafa Kamal Atatürkün elyazıları”, Türk tarix təşkilatı, Ankara, səh. 361

81. http://www.meb.gov.tr/belirligunler/10kasim/anasayfa.htm

82. Prof. dr. A. Afət İnan, “Medeni bilgiler ve Mustafa Kamal Atatürkün elyazıları”, Türk tarix təşkilatı, Ankara, səh. 362

83. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 293

84. http://www.meb.gov.tr/belirligunler/10kasim/yazilar/vecizeler.htm

85. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 138

86. http://www.kimyaokulu.com/Ataturk/atayagoreata.htm

87. Mehmet Özel, “Atatürk”, TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 261

88. Seyfettin Turhan, “Atatürkte konular ansiklopedisi”, Yapı Kredit nəşrləri, İstanbul, fevral 1995, səh. 33

89. “Atatürkün söylev ve demeçleri I-III”, II cild, Atatürk kültür, dil, ve tarih yüksek kurumu Atatürk araşdırma merkezi, Ankara, 1989, səh. 94

90. Prof. dr. Süleyman Aslan xüsusi sayı, Atatürk araştırma merkezi jurnalı, cild 12, ədəd 36, noyabr 1996, səh. 884

91. Mustafa Baydar, “Atatürkle konuşmalar”, Yeditepe mətbəə, İstanbul, 1955, səh. 97

92. Hanif Fauk, “Atatürk urduca nəşrlərdən”, Ankara Universiteti mətbəə, Ankara, 1979, səh. 102

93. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 195

94. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 195

95. Cemal Kutay, “Ne buldu, nə bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 195

96. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 196

97. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 196

98. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 197

99. Cemal Kutay, “Ne buldu, ne bıraktı, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 211

100. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 217

101. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 219

102. Prof. dr. İsmet Giritli, “Atatürk, Laiklik ve din”, Rönesans jurnalı, fevral 1991, səh. 20

103. Emrə Kongar, “Devrim tarihi ve toplum bilim açısından Atatürk”, Remzi nəşriyyat, 4-cü nəşr, İstanbul, səh. 173

104. Prof. dr. Hamza Eroğlu, “Atatürkçülük”, Olgaç mətbəəsi, Ankara, 1981, səh. 255

105. Mehmet Özel, “Atatürk", TC Mədəniyyət Nazirliyi, Ankara, 1990, səh. 299

106. http://www.geocities.com/vesanat/ata2.htm

107. Avni Altıner, “Her yönüyle Atatürk”, 2-ci nəşr, Bakış kitabxanası, İstanbul, 1974, səh. 604

108. Seyfettin Turhan, “Atatürkdə konular ansiklopedisi”, Yapı Kredit nəşrləri, İstanbul, fevral 1995, səh. 287

109. http://www.basbakanlik.gov.tr/ataturk/disbasin.htm

110. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 202

111. Prof. dr. Hamza Eroğlu, “Atatürkçülük”, Olgaç mətbəəsi, Ankara, 1981, səh. 254

112. http://www.ataturk.net/?sayfa=diyorlar&ulke=Almanya

113. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 202

114. http://www.ataturk.net/?sayfa=diyorlar&ulke=Almanya

115. http://www.mkutup.gov.tr/soylenenler.html

116. http://www.mkutup.gov.tr/soylenenler.html

117. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 201

118. http://www.mkutup.gov.tr/soylenenler.html

119. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 220

120. http://www.mkutup.gov.tr/soylenenler.html

121. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 209

122. http://www.mkutup.gov.tr/soylenenler.html

123. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 204

124. http://www.golhisar.com/sayfalar/ata.htm

125. http://www.golhisar.com/sayfalar/ata.htm

126. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 196

127. http://www.mkutup.gov.tr/soylenenler.html

128. http://www.mkutup.gov.tr/soylenenler.html

129. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 214

130. http://www.golhisar.com/sayfalar/ata.htm

131. http://www.golhisar.com/sayfalar/ata.htm

132. http://www.golhisar.com/sayfalar/ata.htm

133. http://www.golhisar.com/sayfalar/ata.htm

134. http://ulusdergisi.kolayweb.com/756212731881.html

135. http://www.basbakanlik.gov.tr/ataturk/disbasin.htm

136. Cemal Kutay, “Ne buldu, ne bıraktı”, Yaşar eğitim ve kültür fondu, İzmir, tarixsiz, səh. 200

137. http://www.golhisar.com/sayfalar/ata.htm

138. http://www.golhisar.com/sayfalar/ata.htm

139. Sidney Fox, “Klaus DOSe, Molecular Evolution and The origin of life”, New York: Marcel Dekker, 1977, səh. 2

140. Aleksandr I. Oparin, “Origin of life”, (1936) New York, Dover publications, 1953 (Reprint), səh. 196

141. “New evidence on evolution of early atmosphere and Life”, Bulletin of the American Meteorological Society, cild 63, noyabr 1982, səh. 1328-1330

142. Stanley Miller, “Molecular evolution of life: Current Status of the Prebiotic Synthesis of Small Molecules”, 1986, səh. 7

143. Jeffrey Bada, “Earth”, fevral 1998, səh. 40

144. Leslie E. Orgel, “The origin of life on Earth”, Scientific American, cild-271, oktyabr 1994, səh. 78

145. Charles Darvin, “The origin of species: A Facsimile of the first edition”, Harvard University Press, 1964, səh. 189

146. Charles Darvin, “The origin of species: A facsimile of the first edition”, Harvard University Press, 1964, səh. 184

147. B. G. Ranganathan, “Origins?”, Pennsylvania: The banner of truth trust, 1988.

148. Charles Darvin, “The origin of species: A facsimile of the first edition”, Harvard University Press, 1964, səh. 179

149. Derek A. Ager, “The nature of the fossil record”, Proceedings of the British Geological Association, cild-87, 1976, səh. 133

150. Douglas J. Futuyma, “Science on Trial”, New York: Pantheon Books, 1983. səh. 197

151. Solly Zuckerman, “Beyond The Ivory Tower”, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, “The Place of australopithecines en human evolution: grounds for doubt”, Nature, cild-258, səh. 389

152. J. Rennie, “Darwins current bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992

153. Alan Walker, “Science”, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co, 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild- 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

154. “Time”, noyabr 1996

155. S. J. Gould, “Natural History”, c. 85, 1976, səh. 30

156. Solly Zuckerman, “Beyond the Ivory tower”, New York: Toplinger publications, 1970, səh. 19

157. Richard Lewontin, “The demon-Haunted World”, The New York review of books, 9 yanvar 1997, səh. 28

158. Malcolm Muggeridge, “The end of christendom”, Grand Rapids: Eerdmans, 1980, səh. 43

Cümhuriyyət tariximiz boyunca, kritik dövrlərdən keçən millətimiz bir çox problemin öhdəsindən, ancaq Atatürkçü düşüncəyə və milliyyətçi-mühafizəkar şəxsiyyətə sahib çıxmaqla gəlinə biləcəyini artıq qavramışdır.

Türkiyənin 21-ci əsrdə böyük öndərin hədəf göstərdiyi “müasir mədəniyyətlər” arasında yer alması və ölkəmizin “lider ölkə Türkiyə” olması üçün Atatürkün açdığı yolda əmin addımlarla irəliləməlidir. Biz Atatürkü yaxşı anlamalı və onun göstərdiyi gözəl əxlaqı nümunə götürməliyik. Atatürkü anlamaq; onu tərifləyən danışıqlar etmək deyil, qanunlarını qavramaq və həyata keçirmək deməkdir.

Bu kitabın yazılmasındakı məqsəd; insanı insan edən dəyərləri Atatürkün sözlərindən götürməklə izah etmək, bayrağımızın səmada azad dalğalanması, dövlətimizin və millətimizin davamlılığı üçün “gözəl əxlaqın” əsas şərt olduğu mövzusunda gənc nəsilləri şüurlandırmaqdır.

**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

**Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.:**